# Növbədənkənar parlament seçkiləri təyin edildi



Prezident İlham Əliyev altıncı çağırış Milli Məclisin buraxılması və parlamentə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamla növbədənkənar seçkilər sentyabrın 1-nə təyin edilib.

Qeyd edək ki, parlamentin iyunun 21-də keçirilən plenar iclasında aparılan müzakirələrdən sonra Milli Məclis növbədənkənar seçkilərin təyin edilməsi üçün ölkə Prezidentinə müraciət edib.

Konstitusiya Məhkəməsi Plenumunun iyunun 27-də keçirilən iclasında Milli Məclisin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsinin Konstitusiyaya uyğun olması barədə qərar verilib.


# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

29 İYUN ŞƏNBƏ 2024 I 24 (4175) Qiyməti - 40 qəpik www.kaspi.az

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB




## SƏNƏDSİZ EVLƏR DÜYÜNÜ ÇÖZÜLÜR?

Hazırda sənədsiz tikililərin sayının təqribən 450-500 min arasında olduğu bildirilir. İnsan sağlamlığına təhlükə törətməyən ərazilərdə tikilmiş mənzillər tədricən yeni portal üzərindən rəsmiləşdiriləcək.

SƏHİFƏ 7-də



## TƏLƏSİK, YOXSA ETİBARLI SÜLH?

Nikol Paşinyan iki od arasında qalıb. Paris və Vaşinqtonun hansının sözünə qulaq asmalı olduğunu götür-qoy edir. İrəvanın düşdüyü alovda yanmaması üçün xilas yolu Bakının tələblərini qeyd-şərtsiz yerinə yetirməsindən keçir.

SƏHİFƏ 3-də



AVROPADAKI TƏRƏFDAŞLARLA UNİKAL HƏRBİ ƏMƏKDAŞLIQ

# HƏRBİ ƏMƏKDAŞLIĞIN AVROPA QÜTBÜ

Azərbaycan çoxqütblü geosiyasətə malik olduğu kimi, müxtəlif istiqamətli hərbi əməkdaşlıq kursuna üstünlük verir. Bu, tək hərbi əməkdaşlıq deyil, həm də siyasi baxımdan vacib və effektiv xətdir.

**İTALİYADAN ALINAN NÖVBƏTİ TƏYYARƏ**

"C-27J Spartan" təyyarəsi Azərbaycanın "Leonardo" şirkətindən aldığı ilk və yeganə texnika deyil. Bundan əvvəl Azərbaycan "Leonardo Aircraft"ın istehsalı olan 10 ədəd "M-346" təlim-döyüş təyyarəsi də əldə edib. Bu təyyarə təcrübədə olduqca əlverişli texnika hesab edilir.

**TƏK MÜTTƏFİQİMİZ ROMA DEYİL**

İtaliya hərbi müstəvidə əməkdaşlıq etdiyimiz tək Avropa ölkəsi deyil. Coğrafi baxımdan Asiyada, siyasi cəhətdən isə Avropada yerləşən İsrailin hərbi-sənaye kompleksi ilə uğurla davam edən əlaqələrin həcmi və önəmi, qardaş Türkiyə ilə hərbi kooperasiyanın miqyası təbii ki, ölçüyəgəlməzdir.

SƏHİFƏ 4-də



## FRANSANIN BURKİNA-FASO ÜÇÜN QİSAS PLANI

Paris keçmiş müstəmləkəsindən qovulması faktı ilə razılaşa bilmir. Bu məqsədlə guya hakimiyyətdəki qüvvələrin ölkəni idarə edə bilmədiyi görüntüsü yaradır, etirazları stimullaşdırır.

SƏHİFƏ 6-da



## YENİTİKİLİLƏRİN TƏHLÜKƏLİ LİFT PROBLEMİ

Son günlərdə yenitikililərdə lift qəzalarının artması müşahidə olunur. Binalar yeni olsa da, liftlərin sıradan çıxması müəyyən suallar yaradır. Ekspertlər bunu bir sıra amillərlə əlaqələndirirlər.

SƏHİFƏ 12-də

Sevgilisinə görə dinini də dəyişib

# VİRTUAL DÜNYADA BAŞLAYAN EŞQ



Özləri cavan olsa da, sevgiləri uzun mübarizədən keçib. Kənardan müxtəlif müdaxilələr olsa da, onlar bir-birilərini buraxmayıblar. Bütün çətinliklərə bərabər sinə gərdikləri üçün də hazırda xoşbəxt ailələri var. "Ailə" rubrikamızın qonaqları azərbaycanlı Günay Rəhimova və rumıniyalı Vlad Mitocdur. Biz də sevgilərini onların dilindən sizə çatdırmağa çalışdıq.

SƏHİFƏ 8-9-da



## GENEFONDUMUZU TƏHDİD EDƏN TƏHLÜKƏ

Son vaxtlar uşaqlarda anadangəlmə qüsurların çoxalması narahatlıq yaradır. Buna səbəb kimi qohum evliliklərinin çoxalması, genetik faktorlar, zərərli vərdişlər göstərilir.

SƏHİFƏ 13-də



## TAMAŞAÇILARIN SEVİMLİ "MƏZİ"Sİ

Əməkdar artist, tamaşaçıların daha çox "Məzi" kimi tanıyıb sevdiyi Elçin Həmidovun doğum günüdür. Onunla bir teatrda, film və layihələrdə tərəf-müqabil olan sənət yoldaşları mərhum aktyoru xoş xatirələrlə anırlar.

SƏHİFƏ 15-də

## Dördü də uğurlu nəticə göstərdi



Cəlilabaddan olan bir ailənin dörd üzvünün yüksək bal toplaması onların sorağını bütün respublikaya yayıb. Asya Yusifova və qızları Mehriban, Günel və Aygün sertifikatlaşdırma imtahanında ixtisas fənnindən yüksək bal toplayıblar.

SƏHİFƏ 10-da

## "Avro-2024"ün sürprizləri



Türkiyə millisi qrup mərhələsini altı xalla başa vurub. Montellanın komandası Gürcüstan üzərində 3:1, Çexiya qarşısında 2:1 hesablı qələbələrlə minimal tapşırığın öhdəsindən gəlməyi bacarıb.

SƏHİFƏ 16-da

ÜÇ ƏSRİN QƏZETİ Kaspi





## Prezident Ceyms O'Braynı qəbul edib

Prezident İlham Əliyev iyunun 28-də ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Braynı qəbul edib. AZƏRTAC xəbər verir ki, Ceyms O'Brayn ABŞ Dövlət katibi Antoni Blinkenin bu yaxınlarda Prezident İlham Əliyev ilə telefon danışığını və bu əsnada aparılan müzakirələri məmnunluqla qeyd edib. O, ABŞ-nin regional sülh gündəliyinin irəliyə aparılmasına sadiqliyini və bu prosesi dəstəkləməyə hazır olduğunu vurğulayıb. Azərbaycan ilə ABŞ arasında müxtəlif sahələrdə əməkdaşlığın, o cümlədən əlaqələrimizin strateji səviyyədə daha da inkişaf etdirilməsi məsələlərinin vacibliyini qeyd edib. Bu xüsusda regional əməkdaşlıq, Orta Dəhliz və digər məsələlər müzakirə olunub. Prezident İlham Əliyev Antoni Blinkenlə telefon danışığını məmnunluqla xatırladıb, bu telefon danışığı əsnasında əlaqələrimizin geniş spektrinin müzakirə olunduğunu deyib. Azərbaycan ilə ABŞ arasında ölkəmizin müstəqilliyinin ilk günlərindən müxtəlif sahələrdə uğurlu əməkdaşlığın qurulduğu vurğulanıb. Söhbət zamanı Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rol, Azərbaycan ilə ABŞ arasında enerji sahəsində əməkdaşlıq, COP çərçivəsində iki ölkənin nümayəndə heyətlərinin səmərəli və faydalı məsləhətləşmələrinin olduğu qeyd edilib. COP29-un uğurla nəticələnməsi üçün ABŞ-nin öz dəstəyini bundan sonra da davam etdirəcəyi vurğulanıb.

# QARABAĞI BİRLİKDƏ QURAQ




Şuşada turizm üzrə peşə mərkəzi yaradılacaq. Hazırda burada 20-yə yaxın sahibkara fəaliyyəti ilə bağlı müvafiq şərait yaradılıb. "Qarabağ" küçəsində Prezident İlham Əliyev tərəfindən təməli qoyulan, dövlət-özəl tərəfdaşlığı çərçivəsində inşa edilən 10 binanın tikintisi sürətlə davam etdirilir.

İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə Şuşada "Sahibkarlar üçün yeni imkanlar: Qarabağı birlikdə quraq" adlı tədbir keçirilib. Tədbirdə çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib ki, əsas məqsəd işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulmasıdır: "Azad edilmiş ərazilərdə minlərlə iş yeri yaradılıb və bunun çox hissəsi özəl sektorun payına düşür". Nazir bildirib ki, azad edilmiş ərazilərdə sahibkarlar üçün güzəştlər tətbiq edilir.

M.Cabbarovun sözlərinə görə, Azərbaycanda ilin sonuna qədər sahibkarlara əlavə maliyyəyə çıxış mexanizmlərinin təmin edilməsi ilə bağlı təşəbbüslərin işə salınması planlaşdırılır. İqtisadiyyat Nazirliyinin strukturuna daxil olan Sahibkarlığın İnkişafı Fondu, Azərbaycan İnvestisiya Şirkəti sahibkarların maliyyə resurslarına çıxışını təmin edir. O qeyd edib ki, maliyyə resurslarına çıxış gələcəkdə də təmin ediləcək: "Bununla belə, bankların təşəbbüslərindən də faydalanmaq səmərəli olardı".

### KÖÇ PROSESİ DAVAM EDİR

Tədbirdə işğaldan azad edilən ərazilərin məskunlaşdırılması ilə bağlı statistikalar da açıqlanıb. Ağdam, Füzuli və Xocavənd rayonlarında Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov deyib ki, bu ilin sonuna kimi Xocavəndə 53 ailənin köçürülməsi nəzərdə tutulub.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubov isə vurğulayıb ki, artıq Xocalı şəhərinə 50 ailənin köçürülməsi təmin edilib. Onun sözlərinə görə, yaxın müddətdə daha 50 ailənin köçü həyata keçiriləcək: "Xocalı şəhəri, Kərkicahan qəsəbəsi, Malıbəyli kəndinə, Ağdərə rayonunun Umudlu kəndinə bu il 228 ailənin yerləşdirilməsi nəzərdə tutulub".

Bu ilin sentyabr və oktyabr aylarında Ağdərə rayonunun Suqovuşan qəsəbəsinə isə 190 ailənin köçürülməsi nəzərdə tutulur. E.Yusubov bildirib ki, növbəti illərdə bu say dəfələrlə artacaq: "Artıq Ağdərə rayonunun Talış kəndinə 20 ailə köçürülüb".

Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev deyib ki, bu il ərzində yenidən salınmış Cəbrayıl şəhərinin mərkəzinə, eləcə də bu rayonun bir neçə kəndinə köç planlaşdırılır. Zəngilan və Qubadlı rayonlarında da yeni yaşayış məskənlərinin inşası davam edir.



Emin Hüseynov

## SƏNAYE PARKLARINDA YARADILAN ŞƏRAİT

İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Seymur Adıgözəlov bildirib ki, hazırda Ağdam Sənaye Parkında ümumi investisiyalarının həcmi 216 milyon manatdan çox olan 25 sahibkarlıq subyektinə rezidentlik, 6 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Bu günədək rezidentlər tərəfindən Sənaye Parkına 35 milyon manatdan artıq investisiya yatırılıb, 300-dək daimi iş yeri yaradılıb: "Sənaye Parkında ümumilikdə 2 000-dən çox iş yerinin yaradılması nəzərdə tutulur".

"Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının isə hazırda 10 rezidenti və 2 qeyri-rezidenti var. İnvestorlar tərəfindən ümumi olaraq 83,4 milyon manatdan artıq investisiyanın yatırılması, 700-dən çox iş yerinin yaradılması nəzərdə tutulur. Bu günədək Sənaye Parkına 14 milyon manatdan çox investisiya yatırılıb, 20-dən artıq iş yeri yaradılıb".

## ŞUŞADA TURİZM ÜZRƏ PEŞƏ MƏRKƏZİ YARADILACAQ

Azərbaycan Prezidentinin Şuşadakı xüsusi nümayəndəsi Aydın Kərimov bildirib ki, Şuşada turizm üzrə peşə mərkəzi yaradılacaq: "Peşə mərkəzinin yeri seçilib. Layihənin icrasının birinci mərhələsi başa çatıb". Xüsusi nümayəndə deyib ki, bu günədək Şuşada fiziki və hüquqi şəxs olmaqla 20-yə yaxın sahibkara fəaliyyəti ilə bağlı müvafiq şərait yaradılıb. "Qarabağ" küçəsində Prezident İlham Əliyev tərəfindən təməli qoyulan, dövlət-özəl tərəfdaşlığı çərçivəsində inşa edilən 10 binanın tikintisi sürətlə davam etdirilir: "Bu binaların 8-i özəl investorlar, 2-si isə Şuşa Şəhər Dövlət Qoruq İdarəsi tərəfindən tikilir. Qeyd edim ki, bu investisiya layihəsinə 1 manat da olsa dövlət vəsaiti sərf olunmur. İlin sonunadək sözügedən binalarda əsasən qonaqlama, ictimai iaşə, ticarət xidmətlərinin təşkili planlaşdırılır".

FRANSA VƏ ABŞ-NİN CƏNUBİ QAFQAZ BÖLGƏSİNDƏ TOQQUŞAN SÜLH MARAQLARI

# Tələsik, yoxsa etibarlı SÜLH?



Ermənistan baş naziri Nikol Paşinyan iki od arasında qalıb. Paris və Vaşinqtonun hansının sözünə qulaq asmalı olduğunu götür-qoy edir. İrəvanın düşdüyü alovda yanmaması üçün xilas yolu Bakının tələblərini qeyd-şərtsiz yerinə yetirməsindən keçir.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Azərbaycan və Ermənistan arasında sülh sazişi mətninin razılaşdırılması ilə bağlı təkliflər mübadiləsinin 10-cu raundu reallaşıb. Detallar açıqlanmasa da, tərəflərin fikir ayrılıqlarının qaldığı məsələlər məlumdur. Rəsmi Bakının əsas tələbi Azərbaycana qarşı ərazi iddialarının əksini tapdığı Ermənistan Konstitusiyasının dəyişdirilməsidir. Lakin rəsmi İrəvan bu addımı atmaq istəmir, əksinə, "tələsik sülh formulu" ideyasını irəli sürür.

Məlum formulun əsas tezislərinin hansı mərkəzlərdən qaynaqlandığı da məlumdur. Diqqət edək: iyunun 20-də ABŞ Dövlət katibi Antoni Blinken növbəti dəfə Prezident İlham Əliyevə zəng edib. O, ABŞ-nin iki ölkə arasında münasibətlərin normallaşdırılması prosesinə dəstəyini davam etdirməyə əzmli olduğunu vurğulayıb və tərəfləri tezliklə sülh müqaviləsini imzalamağa dəvət edib. Rəsmi açıqlamadan da göründüyü kimi, Vaşinqton sülh müqaviləsinin "tezliklə" imzalanmasını istəyir. Lakin, sülh yolunda başlıca əngəlin hansı yolla aradan qaldırılmasının yollarını göstərmir.

### ABŞ-NİN SÜLH LAYİHƏSİ

Bu məsələ ilə bağlı Vaşinqtonun planlarını Blinkenin əvəzinə keçmiş Minsk Qrupunun amerikalı həmsədri olmuş Ceyms Uorlik açıqlayır. Onun sözlərinə görə, Ermənistan Konstitusiyasına düzəlişlər İrəvan və Bakı arasında çərçivə mahiyyəti daşıyacaq sülh sazişinin bağlanması üçün ilkin şərt olmamalıdır: "Bəli, gələcəkdə nə vaxtsa Konstitusiya dəyişdirilməlidir. Amma hamı bilir ki, Ermənistanda bunu etmək asan deyil. Belə bir şərt müqavilənin bağlanmasına mane olacaq". Uorlik bildirir ki, bu məsələ ikitərəfli razılaşma əsasında sənəddə "Konstitusiyaya dəyişikliyin gələcəkdə mümkünlüyü"nün qeyd edilməsi ilə həll oluna bilər. Bəli, dəyişdirilməsi yox, məhz mümkün olması. İrəvanın bu illər ərzində "mümkün" olaraq qeyd etdiyi heç bir razılaşmaya əməl etmədiyi faktdır.

### VAŞİNQTONU TƏLƏSDİRƏN SƏBƏBLƏR

Bəs nədir Vaşinqtonu bu dərəcədə tələsdirən səbəblər? Bu sualın cavabını da elə ABŞ-nin keçmiş diplomatı cavablandırır. Vaşinqtonun İrəvandakı keçmiş baş diplomatı Con Heffern etiraf edir ki, onun və ABŞ-nin Ermənistandakı bütün səfirlərinin vəzifəsi Ermənistanın siyasi kursunun Qərbə çevrilməsini təmin etmək idi. Göründüyü kimi, bu missiya istər işğal dövründə, istərsə də Azərbaycanın tarixi zəfərindən sonra yaşanan geosiyasi proseslər fonunda dəyişməz olaraq qalır. İndi ABŞ-nin bu məsələdə NATO-dan müttəfiqi olan Fransa kimi rəqibi ortaya çıxıb. Onların hər ikisinin əsas missiyası Ermənistanı Qərbə yönləndirmək olsa da, ortada kiçik bir "əmma" var. Fransa üçün Qərb Avropa, ABŞ üçün isə okeanın o tayıdır. Paris Ermənistanı silahlandırmaqla sülhə əngəl olmağa, gərginlik fonunda Cənubi Qafqazda özünə yer etməyə çalışır. Vaşinqton isə, öz məqsədinə "tələsik sülh formulu" vasitəsi ilə nail olmağa cəhd edir.

### "MÜTTƏFİQLƏR"İN CƏNUBİ QAFQAZ DAVASI

Qərbin bu iki mərkəzi arasındakı qarşıdurma elə amerikalı keçmiş diplomatların (əslində Vaşinqton üçün "keçmiş diplomat" ifadəsi bir qədər ritorikdir. Çünki keçmiş səfirlərin hər birinin diplomatik fəaliyyətdən sonra çalışdığı mərkəzlərin Dövlət Departamentindən asılı olduğu, onun müəyyənləşdirdiyi tezislər əsasında bəyanatlar verdikləri məlumdur - A.Ə) bəyanatlarından da açıq hiss edilir. Uorlik Parisin Ermənistana "Sezar" haubitsaları verməsini hədəfə alaraq, Fransanın indiki məqamda yanlış addım atdığını bildirir: "Ermənistanın Fransadan və ya başqa ölkələrdən silah almaq hüququ var. Lakin biz sülh müqaviləsi imzalamağa yaxın olduğumuz ərəfədə Fransanın bu addımı Ermənistanla Azərbaycan arasında münasibətlərdə qıcıq yaradır. Fransa sülh sazişi imzalandıqdan sonra Ermənistanla silah tədarükü ilə bağlı müqavilə bağlamalı idi. Təəssüf ki, biz sülh sazişinə yaxınlaşdıqca belə bir addım çaşqınlıq yaradır və danışıqları daha da çətinləşdirir".

## VAŞİNQTONUN İKİLİ OYUNU

Vaşinqtonun sülh formuluna yanaşması ilə bağlı rəsmi açıqlamalar üzdə məqbul kimi görünsə də, aysberqin görünməyən tərəfləri də var. Ancaq Bakı üçün bu görünməzliyin mahiyyəti artıq sirr deyil. Çünki ortada 30 illik nəticəsiz danışıqlar təcrübəsi və bağlı qapılar arxasında ortaya qoyulan mövqe var. Elə Vaşinqtonun diplomatik emissarlarının səsləndirdikləri fikirlər, Konqresin bir çox üzvlərinin ortaya qoyduğu mövqe bu qənaətə gəlmək üçün əsasdır. Məsələn, Uorlik "ermənilərin Dağlıq Qarabağa qaytarılması məsələsi sülh müqaviləsinin tərkib hissəsi olmalıdır", "onlara Azərbaycanın tərkibində hər hansı status verilməlidir" kimi bəyanatlarını xatırlatmaq kifayətdir ki, Vaşinqtonun bölgə ilə bağlı siyasətinin əsl mahiyyəti anlaşılsın. Yaxud, bu günlərdə ermənipərəst Adam Şiffin təşəbbüsü ilə 47 konqresmen "Qarabağdakı erməni mədəni, tarixi və dini obyektlərinin qorunub saxlanılması üçün tədbirlərin görülməsi"nə dair dövlət katibi Antoni Blinkenə məktub ünvanlayıb. Bu siyahını uzatmaq da olar.



## İRƏVANIN YEGANƏ ÇIXIŞ YOLU

Göründüyü kimi, Ermənistan baş naziri Nikol Paşinyan iki od arasında qalıb. Paris və Vaşinqtonun hansının sözünə qulaq asmalı olduğunu götür-qoy edir. Lakin İrəvanın düşdüyü alovda yanmaması üçün xilas yolu Bakının tələblərini qeyd-şərtsiz yerinə yetirməsindən keçir. Bu şərtlərin nələrdən ibarət olduğu isə Prezident İlham Əliyev Blinkenlə son telefon danışığında bir daha qarşı tərəfin diqqətinə çatdırıb. Hazırda regionda sülh təmin edilib, sülh müqaviləsinin əsasını təşkil edən prinsiplərin və onun mətninin təşəbbüskarı da Azərbaycandır. Danışıqlar ikitərəfli əsasda aparılmalı və normallaşma prosesi, sülh gündəliyinin irəli aparılması səyləri bu çərçivədən kənara çıxmamalıdır. Ən əsası isə, sülhün irəli aparılması üçün Ermənistanda Konstitusiya, müvafiq qanunlar və ölkədaxili normativ-hüquqi aktlar əsasında Azərbaycana qarşı olan ərazi iddialarına son qoyulmalıdır. Bir sözlə, Bakı üçün "tələsik sülh formulu" məqbul deyil. Azərbaycana qarşı bu istiqamətdə göstərilən və planlaşdırılan təzyiqlər isə əvvəllər olduğu kimi bu dəfə də heç bir nəticə verməyəcək.



Ceyms Uorlik

Con Heffern

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# HƏRBİ ƏMƏKDAŞLIĞIN AVROPA QÜTBÜ



**Azərbaycan çoxqütblü geosiyasətə malik olduğu kimi, müxtəlif istiqamətli hərbi əməkdaşlıq kursuna üstünlük verir. Bu, tək hərbi əməkdaşlıq deyil, həm də siyasi baxımdan vacib və effektiv xətdir.**



RÜSTƏM QARAXANLI

İyunun 26-da Azərbaycanın İtaliyanın hərbi-sənaye sektorunun lideri “Leonardo” şirkətindən aldığı “C-27J” tipli təyyarənin təqdimatında Prezident, Ali Baş Komandan İlham Əliyev şəxsən iştirak edərək hərbi təyyarəyə baxış keçirdi. Bundan sonra dövlət başçısının İtaliyanın müdafiə naziri Quido Krosetto və xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Edmondo Çirielli ilə görüşü oldu. İtaliyanın hər iki rəsmisi Azərbaycana “Leonardo” şirkətinin prezidenti Stefano Pontekorvo ilə birlikdə, hərbi təyyarəni təqdim etmək üçün gəlmişdilər. Bu səfər rəsmi Romanın Bakı ilə mövcud olan strateji münasibətlərinə verdiyi önəm və dəyərin çox parlaq göstəricisidir.

### AVROPADA ƏN İRİ TƏRƏFDAŞ

Bu, Prezident İlham Əliyevin adıçəkilən şəxslərlə ilk görüşü deyil. İtaliyanın müdafiə naziri Azərbaycana bir neçə dəfə səfər edib və bu, onu göstərir ki, rəsmi Bakının Roma ilə hərbi əməkdaşlıq sahəsindəki əlaqələri olduqca intensiv xarakter daşıyır. Dövlət başçısının “Leonardo” şirkətinin prezidenti ilə də təmasları mütəmadidir. “Leonardo” tək İtaliya və ya Avropada deyil, bütün dünyada hərbi-sənaye kompleksinin lideri və novatorlarından biridir.

Azərbaycanın İtaliya ilə uğurlu və məhsuldar əməkdaşlığı Bakının iqtisadi imkanları və siyasi potensialını necə məharətlə hərbi əməkdaşlıq müstəvisində istifadə etdiyinin bariz nümayişidir. Bu gün İtaliya Azərbaycanın bəlkə də ən vacib və prioritet iqtisadi tərəfdaşıdır. Bu ölkə ilə olan ticarət dövriyyəsi 15 milyard dollar həddindədir. Bu, kifayət qədər böyük göstəricidir. İtaliya Azərbaycanın enerji daşıyıcılarının sabit alıcısıdır. Romanın Avropanın və Avropa Birliyinin qabaqcıl təmsilçisi olduğunu nəzərə alsaq, iqtisadi və hərbi əməkdaşlığın siyasi tərəfdaşlığa transformasiyası, siyasi kapitalın toplanması baxımından mühüm əhəmiyyəti var.

### UNİKAL HƏRBİ ƏMƏKDAŞLIQ

Azərbaycanın İtaliya ilə hərbi əməkdaşlığı unikal xarakter daşıyır. İtaliya NATO-nun üzvü və belə demək mümkündürsə, bu hərbi təşkilatın təməl daşlarındandır. Nəzərə alsaq ki, Şimali Atlantika Alyansı uzun illər boyu Ermənistan-Azərbaycan qarşıdurmasında məsafə gözləməyə çalışıb, bu halda Bakının faktiki olaraq NATO istehsalı olan hərbi təmayüllü məhsul əldə etməsi diqqətə alınacaq amildir. Düzdür, alınan hərbi təyyarə hücum xarakterli deyil, logistik önəmə malikdir. Ancaq istənilən halda, hərbi təmayüllüdür, üstəlik, tək İtaliya istehsalçılarının ərsəyə gətirdiyi texnika deyil. “C-27J”-nin istehsalında ABŞ hərbi-sənaye sektorunun da payı var.

Yeri gəlmişkən, sözügedən təyyarə Azərbaycanın “Leonardo” şirkətindən aldığı ilk və yeganə texnika deyil. Bundan əvvəl Azərbaycan “Leonardo Aircraft”ın istehsalı olan 10 ədəd “M-346” təlim-döyüş təyyarəsi də əldə edib. Bu təyyarə təcrübədə olduqca əlverişli texnika hesab edilir. Azərbaycandan başqa “M-346” təyyarəsi Polşa, İsrail və Sinqapurda da uğurla sınaqdan çıxarılır.

## AZƏRBAYCANIN HƏRBİ DESANTI BALKANLARDA



İtaliya Azərbaycanın hərbi müstəvidə əməkdaşlıq etdiyi tək Avropa ölkəsi deyil. Coğrafi baxımdan Asiyada, siyasi cəhətdən isə Avropada yerləşən İsrailin hərbi-sənaye kompleksi ilə uğurla davam edən əlaqələrin həcmi və önəmi, yaxud qardaş Türkiyə ilə hərbi kooperasiyanın miqyası təbii ki, ölçüyəgəlməzdir. Bununla belə, tək siyasi və iqtisadi deyil, həm də çoxşaxəli hərbi əməkdaşlıq Azərbaycanın geosiyasi kursunun mühüm özəlliklərindən biridir.

Bu istiqamətdə Serbiya ilə münasibətlərin ayrıca yeri var. Hərbi təmaslar hər iki dövlət üçün o qədər vacibdir ki, hətta Serbiya lideri Vuçiç bunu çıxışlarında da qeyd edir. Azərbaycanın bu ölkədən müxtəlif atıcı texnika aldığına dair mütəmadi xəbərlər dolaşır.

### ÖZÜYERİYƏN ARTİLLERİYA SİSTEMLƏRİ

Azərbaycanın Serbiya ilə yanaşı, Çexiya və Slovakiya ilə də hərbi sahədə uğurlu təmasları mövcuddur. Mayın əvvəlində Slovakiyanın Baş naziri Robert Fitsonun Azərbaycana rəsmi səfəri zamanı imzalanan sənədlərdən biri məhz hərbi məzmunlu olub. İki ölkə arasında hərbi məhsulların birgə istehsalı gündəmin prioritet mövzularındandır.

Slovakiya baş nazirinin Bakıya səfərindən sonra Azərbaycan müdafiə nazirinin müavini - Baş direktor Aqil Qurbanovun rəhbərlik etdiyi nümayəndə heyəti Bratislavada keçirilən “IDEB 2024” beynəlxalq sərgisində iştirak edib. İctimailəşən xəbərlərə görə, Azərbaycan Slovakiyadan “Zuzana” özüyeriyən artilleriya sistemlərini əldə edə bilər. Bu, olduqca effektiv silahdır. Hətta o dərəcədə ki, Slovakiyanın Ukraynaya bu silahdan bir neçə ədədini verməsi ciddi polemikaya və Rusiyanın sərt reaksiyasına səbəb olmuşdu.

Azərbaycan 2020-ci ilin 44 günlük müharibəsində Çexiya istehsalı olan “DANA” özüyeriyən artilleriya sistemlərini uğurla istifadə edib. Bakı bu silahları Çexiyadan 2017-ci ildə əldə etmişdi. “Zuzana” “DANA”nın modifikasiya edilmiş versiyasıdır. Ekspertlərə görə, bu silah Rusiya istehsalı olan “Msta”nı bir sıra komponentlərinə görə geridə qoyur.

### VACİB VƏ EFFEKTİV XƏTT

Azərbaycan çoxqütblü geosiyasətə malik olduğu kimi, müxtəlif istiqamətli hərbi əməkdaşlıq kursuna üstünlük verir. Bu, tək hərbi əməkdaşlıq deyil, həm də siyasi baxımdan vacib və effektiv xətdir. Tək bir məqamı xatırlamaq bu qənaətimiz üçün kifayətdir: Ermənistanın baş naziri Nikol Paşinyan çıxışlarında dəfələrlə bəyan edib ki, bir çox ölkələr Azərbaycanla münasibətlərinə görə onlara silah satmaqdan imtina edirlər. Paşinyan hansı ölkələri nəzərdə tutduğunu açıq demir. Ancaq söhbətin kimlərdən getdiyini anlamaq o qədər də çətin deyil.



# BEYNƏLXALQ VALYUTA FONDU PAŞİNYANA QARŞI




Dünyada iqtisadi siyasətin iki modeli qəbul olunsa da, Ermənistanda bunların heç biri işləmir. Çünki dövlət strukturları Paşinyana yaxın müəyyən şəxslərin və şirkətlərin maraqlarına uyğun fəaliyyət göstərirlər.

F.ABASOĞLU

Ermənistanın baş naziri Nikol Paşinyanın ölkədə yeni oliqarx təbəqəsi yaratmaq həvəsi və fəaliyyəti beynəlxalq qurumların diqqət mərkəzindədir. Təsadüfi deyil ki, bir müddət əvvəl “Freedom House” təşkilatı bir neçə məsələ ilə bağlı erməni hökumətini sərt tənqid etmişdi. Bu dəfə isə Beynəlxalq Valyuta Fondu (BVF) Paşinyan hökumətinə mənfi qiymət verib.

“Zəngəzur Mis-Molibden Kombinatı”, “VivaCell MTS” və “Lidian Ermənistan” kimi iri müəssisələrdə dövlət payının artırılması, özəl sektora qarşı “səlib yürüşü” BVF-nin diqqətindən yayınmayıb. Fond son illərdə müxtəlif sxemlərlə payları hökumətə verilən iri şirkətlərdə dövlət payını azaltmağa çağırıb.

### FONDUN PAŞİNYAN HÖKUMƏTİNƏ ETİNASIZLIĞI

Əslində bu, BVF və Paşinyan hökuməti arasında ilk narazılıq deyil. Bu hal bir neçə dəfə təkrarlanıb. Ən mühüm hadisə isə 2021-ci ilin avqustunda qeydə alınıb. Sözügedən tarixdə BVF-nin qəbul etdiyi qərarla, pandemiyanın nəticələrini aradan qaldırmaq üçün Ermənistana ayrılan vəsait digər MDB ölkələrinə nisbətən xeyli az olub.

### İQTİSADİ SİYASƏT FIRILDAĞI

İqtisadi siyasətin liberal və proteksionist modellərinin olduğunu nəzərə alsaq, Paşinyan hökumətinin iri müəssisələrdə dövlət payını artırması nəzəri cəhətdən proteksionizmə uyğun olduğu mənzərəsi yaradır. Əslində isə bu, hakimiyyətdə olan bəzi subyektlərin iqtisadi ambisiyalarının təmin edilməsindən başqa bir şey deyil. Proteksionist modeldə səhmləri idarə etməklə, səmərəliliyi artırmaq nəzərdə tutulur.

Paşinyanın uydurduğu model isə bəzi məmurların cibini doldurmaq, yeni oliqarxiya yaratmaqdan başqa bir işə yaramır.



### HAKİMİYYƏTİN LİBERAL FƏRZİYYƏLƏRİ

Əslində proteksionist iqtisadi siyasət hazırda böhran vəziyyətində olan Ermənistan iqtisadiyyatı üçün məntiqli olardı. Amma problem ondadır ki, gecə-gündüz bu barədə danışan Paşinyan hökuməti liberal iqtisadiyyat modelini dəstəklədiyini bəyan edir. Reallıqda isə liberal iqtisadi siyasətə tamamilə zidd addımlar atırlar. Dünya iqtisadiyyatında liberal xətti dəstəkləyən BVF-nin İrəvana münasibətdə sərgilədiyi mövqe də, təbii ki, Paşinyanın real və ritorik siyasətinə uyğunlaşdırılır.

Müxtəlif sahibkarlıq subyektlərində dövlətin payının artımı ilə bağlı oxşar təcrübə Rusiya, Çin və Böyük Britaniyada müşahidə edilir. Daha çox enerji sektorunda müşahidə olunan bu siyasətdə dövlət bu və ya digər sferanı təhlükəsizlik baxımından əhəmiyyət kəsb edən sahələr hesab edərək nəzarəti öz əlinə alır. Ermənistanda isə hələ də iqtisadi inkişaf modeli, iqtisadi siyasət yoxdur, iqtisadiyyatın idarə edilməsi situativ amillərlə həyata keçirilir. Bu gün hər hansı iri müəssisə və ya təsərrüfat subyektini idarə etmək hakimiyyətdə olan müəyyən qrupların mənafeyinə uyğundursa, o zaman bu, həyata keçirilir və müvafiq qərar verilir. Əgər beynəlxalq kreditlər almaq üçün liberallaşmadan danışmaq sərfəlidirsə, onda bu istiqamətdə gedirlər.

## ERMƏNİSTAN İQTİDARI ÇIXILMAZ VƏZİYYƏTDƏ

Yuxarıda sadalananlar bu gün Ermənistan iqtisadiyyatı və dövləti üçün çox ciddi problemə çevrilib. Dünyada iqtisadi siyasətin iki modeli qəbul olunsa da, Ermənistanda onların heç biri işləmir. Buna səbəb dövlət strukturlarının müəyyən şəxslərin maraqlarına uyğun fəaliyyət göstərməsidir. Ona görə də BVF kimi nüfuzlu qurum sərt mövqeyini gizlətmir. Bu səbəbdəndir ki, fond Paşinyan hökumətinə ya çox cüzi məbləğdə kredit ayırır, ya da ümumiyyətlə ayırmır. Paşinyan komandası isə səhvlərindən nəticə çıxarmaq, beynəlxalq normalara uyğun fəaliyyət göstərmək fikrində deyil.

### NAREK BABAYAN MİSALI

Hələ bu da azmış kimi, bu yaxınlarda baş nazirin Sünik (Zəngəzur) səfərindən sonra “ZPMK”dakı nümayəndəsi Narek Babayanın başı üzərində qara buludlar toplaşmağa başlayıb. Hakim partiyanın üzvü olan Babayanın dostunun “Annar” adlı şirkəti torpaq işlərini və daşınmasını həyata keçirir. Hakim partiyanın üzvü isə dostunun şirkətinə işlərin verilməsinə, bəzi şirkətlərin isə fəaliyyətinin sıfıra düşməsinə səbəb olub. Ehtimal olunur ki, müqavilələrdən məhrum olan şirkət sahibləri Paşinyana arzuolunmaz məlumatları çatdıraraq Babayanın ayağının altını qaza biliblər. Çünki bu şirkətlər qazanclarından Anna Akopyanın fonduna və Paşinyana yaxın şəxslərə müəyyən pay ayırırlar. Artıq siyasi kulislərdə gəzən söhbətlərə görə, Narek işindən uzaqlaşdırılacaq, onun yerinə daha etibarlı şəxs gətiriləcək.

Göründüyü kimi, ölkə iqtisadiyyatını dostlarına peşkəş edən Paşinyan Ermənistanı günü-gündən uçuruma aparır.



BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az

# FRANSANIN BURKİNA-FASODAN QİSAS ALMAQ PLANI


İbrahim Traore





Emmanuel Makron

Paris keçmiş müstəmləkəsindən qovulması faktı ilə razılaşa bilmir. Bu məqsədlə guya hakimiyyətdəki qüvvələrin ölkəni idarə edə bilmədiyi görüntüsü yaradır, etirazları stimullaşdırır. Burkina-Fasonun keçid dövrü hökuməti isə dövlət çevrilişi şayiələri fonunda vəziyyəti nəzarətə almağa çalışır.


AZƏR NURİYEV

Fransa XXI əsrdə müstəmləkə siyasəti yürüdən dövlətlər sırasında birinciliyini qoruyub saxlayır. Xalqların müstəqillik, azadlıq hərəkatını qan içində boğan, onların hüquqlarını ayaqlar altına atan bu dövlət məlum siyasətini aqressiv şəkildə davam etdirməkdədir. Dənizaşırı ərazilərində 13 ölkəni (Fransadan minlərlə kilometr uzaqda, Sakit, Atlantik və Hind okeanlarında ada-ölkələr) hələ də müstəmləkə əsarətində saxlayır. "Sivil Avropa ölkəsi" olaraq hər kəsə dərs keçməyə çalışan Yelisey sarayı nə müstəmləkə siyasətindən əziyyət çəkən və hüquqları pozulan insanları dinləyir, nə də güzəştə gedir. Amma bir şey var ki, artıq həmin ərazilərdə yaşayanlar əvvəlki qaydada idarə olunmaq istəmirlər. Paris Qabon, Niger, Burkina-Faso kimi keçmiş müstəmləkələrindən qovulub, yeni-yeni ərazilərdə də anti-Fransa hərəkatı pik həddə çatıb. Bütün bunların baş verməsində şübhəsiz ki, indiki Fransa iqtidarının əvəzsiz rolu var. Məhz Emmanuel Makronun yarıtmaz siyasəti nəticəsində Beşinci Respublika çətin duruma düşüb.

## BURKİNA-FASO ƏL ÇƏKİR, MAKRON YOX

Özü də Fransa keçmiş müstəmləkələrini sakitcə tərk etmək istəmir. Parisin dəstəyi ilə həmin ərazilərdə dövlət çevrilişləri, qarşıdurmalar yaradılır. Fransanın keçmiş müstəmləkəsi Burkina-Fasoda baş verən son hadisələr də bunu təsdiq edir. Bu ölkədə artıq dövlət çevrilişinə cəhdlər barədə xəbərlər yayılmağa başlayıb.

Burkina-Fasonun keçid dövrü hökuməti dövlət çevrilişi şayiələri fonunda vəziyyəti nəzarətə almağa çalışır. Makron mediası ölkənin lideri İbrahim Traorenin orduda nüfuzunun sürətlə aşağı düşdüyü barədə xəbərlər tirajlayır. Fransanın hər vəchlə yenidən bölgəyə qayıtması ssenarisi də cızılır. Planını reallaşdırmaq üçün isə ölkədəki islamçı qruplaşmalardan istifadə etməyə çalışırlar. Artıq gərginliyin ilkin əlamətləri də var. Mansiladakı hərbi bazaya cihadçıların hücumu yüzlərlə hərbçinin ölümü ilə nəticələnib. Traore isə etirazçı əhval-ruhiyyənin mövcudluğunu təkzib edir.

Analitiklər dövlət çevrilişi söhbətləri fonunda repressiv addımların baş verəcəyini gözləyirlər. Antihökumət çağırışlarının Fransa xüsusi xidmət orqanları tərəfindən həyata keçirildiyi də istisna edilmir. "Oxford Analytica" platformasının ekspertləri xatırladırlar ki, son vaxtlar bir sıra korpusların hərbi qulluqçuları zorakı oğurluq hallarının artması ilə üzləşiblər.

### FRANSIZ MEDİASI İŞ BAŞINDA

Fransa hökumətinin aparıcı ruporu "Le Monde" iddia edir ki, bölgədə "Əl-Qaidə"nin yerli bölməsi aktivləşib. Belə götürdükdə, tanış ittihamdır. Qərb dövlətləri adətən bu tezisdən onların siyasətinə əks gedən dövlətlərə qarşı istifadə edirlər. Bu səbəbdən də gözləmək olar ki, bu yaxınlarda keçmiş fransız müstəmləkəsində qarşıdurma və gərginlik pik həddə çatacaq. Fransa da bunu gözləyir ki, bölgəyə yenidən daxil olsun.

Gərginlik tək hərbi fazada deyil. Burkina-Faso paytaxtı yaxınlığında da təhlükəli olaylarla bağlı xəbərlər yayılıb. Mansil qətliamından bir gün sonra prezident iqamətgahının yaxınlığında yerləşən Uaqduqu şəhərindəki milli televiziya ofisində partlayış baş verib. Səlahiyyətlilər hadisənin əhəmiyyətini azaltmağa çalışaraq, redaksiya yaxınlığında təsadüfən atılan mərminin partladığını bildiriblər. Lakin fransız mediası partlayışın ordudakı iğtişaşların nəticəsi olduğunu iddia edir. Oxşar hadisə mayın 17-də baş vermişdi. O vaxt prezident iqamətgahındakı təhlükəsizlik xidməti hücumun hədəfinə çevrilmişdi.



## PARİSİN ÇEVRİLİŞ SSENARİSİ

Bütün bunların fonunda sosial şəbəkələrdə Burkina-Fasonun "vətənpərvər" hərbçilərinin adından "səfərbər olun və bu rejimə son qoyun" çağırışı ilə manifest yayılıb. "Le Monde"nin mənbələri iddia edir ki, Traoreyə qarşı olan ordu elitasının üzvləri çevriliş üçün güc toplamaq məqsədilə "gənc qvardiyanın qəzəbindən istifadə etmək" istəyirlər. "Hazırda çevrilişin təşkili ilə bağlı danışıqlar gedir. Lakin tərəflər liderliyi təmin edə bilmirlər", - deyə fransız nəşrinin Burkina-Fasonun təhlükəsizlik xidmətlərindəki həmsöhbətlərindən biri deyib.

### FRANSIZ MÜSTƏMLƏKƏÇİLİYİNƏ GEDƏN YOL

Qərbi Afrika dövləti olan Burkina-Faso 1984-cü ilə qədər Yuxarı Volta adlandırılıb. Dənizə çıxışı olmayan bu ölkənin adı tərcümədə "vicdanlı adamların vətəni" deməkdir. 15 milyon əhalisi olan dövlətin fransızlar tərəfindən işğalı XIX əsrin sonlarında başlanıb. 1947-ci ildən 1958-ci ilə kimi fransız Yuxarı Voltası Fransa dənizaşırı ərazisi olub, sonralar isə Fransa Birliyinin tərkibində Yuxarı Volta Muxtar Respublikası kimi təşkil olunub. Fransızların buradakı hakimiyyəti dövrü qanlı olaylara səhnə olub.

### CASUS QALMAQALI

Burkina-Faso bu yaxınlarda pozuculuq fəaliyyəti ilə məşğul olan üç fransız diplomatı "arzuolunmaz şəxs" elan edib. Qeyd olunub ki, Burkina-Fasoda 2023-cü ilin sentyabrında baş verən çevriliş zamanı hakimiyyətə gələn qüvvələrin təsiri ilə iki ölkə arasında 1961-ci ildə imzalanan hərbi əməkdaşlıq haqqında müqavilə ləğv edilib. Bundan sonra Fransanın səfiri geri çağırılıb. Onun hələ də Uaqaduquya geri qayıtmadığı bildirilir. Dekabrın 1-də Burkina-Faso hökuməti dörd fransız diplomatı casusluq ittihamı ilə həbs edib. Daha sonra diplomatlar ev dustaqlığına buraxılıb. Onların ölkə ilə bağlı məlumatları vaxtaşırı Fransa hökumətinə ötürdüyü qeyd olunub. Daha sonra dekabrda hökumətin qərarı ilə yerli şirkətlərdən birində işləyən iki Fransa vətəndaşı ölkədən çıxarılıb. Xatırladaq ki, Fransa artıq Mali və Burkina-Fasodakı hərbi missiyalarının fəaliyyətini dayandırıb.

# SƏNƏDSİZ EVLƏR DÜYÜNÜ ÇÖZÜLÜR?

SEVİNC ABBASOVA

Azərbaycanda böyük "əmlak amnistiyası" gözlənilir. Ekspertlərin fikrincə, bu addımla tikinti sahəsində çoxillik problemlərə son qoyula bilər. Belə ki, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin məlumatına görə, bununla bağlı yeni elektron portal hazırlanır. Portal 2024-cü ilin sonuna qədər vətəndaşların istifadəsinə veriləcək. İnsan sağlamlığına və insan fəaliyyətinə təhlükə törətməyən ərazilərdə tikilmiş mənzillər tədricən bu portal üzərindən rəsmiləşdiriləcək.

Hesablamalara əsasən, hazırda sənədsiz tikililərin böyük əksəriyyəti Bakı və Bakıətrafı ərazilərdə yerləşir. Bu tikililərin sayının təqribən 450-500 min arasında olduğu bildirilir. Vətəndaşların belə tikililərə çıxarış ala bilməməsinin əsas səbəbi isə ərazi ilə bağlı yaranan problemlərdir. Xüsusilə fərdi yaşayış evləri çox zaman kənd təsərrüfatı, sənaye əhəmiyyətli, habelə müxtəlif dövlət mülkiyyətindəki torpaq sahələrində, mühafizə zolaqlarında, aktiv vulkanik ərazilərdə yerləşir. Maraqlıdır, görəsən, "əmlak amnistiyası"na düşməyən tikililərin taleyi hansı formada həll ediləcək? Bu tikililərin sayı nə qədərdir? Ümumiyyətlə, amnistiya daşınmaz əmlak bazarına necə təsir göstərəcək?

Hesablamalara əsasən, hazırda sənədsiz tikililərin böyük əksəriyyəti Bakı və Bakıətrafı ərazilərdə yerləşir. Bu tikililərin sayının təqribən 450-500 min arasında olduğu bildirilir. İnsan sağlamlığına və fəaliyyətinə təhlükə törətməyən ərazilərdə tikilmiş mənzillər tədricən yeni portal üzərindən rəsmiləşdiriləcək.



## VƏTƏNDAŞLAR NARAZI QALMAYACAQLAR

Əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı bildirib ki, təxminən 30 minə yaxın tikilinin "əmlak amnistiyası"nda yer almayacağı proqnozlaşdırılır. Onun sözlərinə görə, bu cür evlərə çıxarışların verilməsi mümkünsüzdür: "Mövcud qanunvericilikdə açıq şəkildə qeyd olunub ki, magistral xətlərin mühafizə zolağı, meşə-təsərrüfat torpaqları, yüksək gərginlikli elektrik xətlərinin keçdiyi yerlər, eləcə də aktiv mədən və vulkanik ərazilərdə ev tikmək qadağandır. Təbii ki, amnistiya ilə bağlı məsələ müzakirə olunarkən bu nüanslar da nəzərə alınıb. Düşünürəm ki, proqram icra olunarkən həmin evlərə amnistiyanın verilməsi məsələsindən daha çox, onların sökülməsi məsələsi aktual olacaq. Lakin bu o demək deyil ki, hökumət dərhal 30 minə yaxın ailəni bir gecədə çölə tökəcək".

Ekspert deyib ki, ölkə rəhbərliyi bu istiqamətdə qərarlar qəbul edərkən sosialyönümlü hökumət platformasının yaradılmasını əsas götürür. Burada da əsas məsələlərdən biri vətəndaş məmnunluğudur: "Bu mənada düşünmürəm ki, Azərbaycan hökuməti təxminən bir milyon evi sənədləşdirərkən 3-5 faizlik kütləni nəzərə almasın. Çox güman ki, bu məsələ ya vətəndaşa kompensasiya ödənilməsi, ya da başqa ərazilərə köçürülməsi yolu ilə öz həllini tapacaq".


Ramil Osmanlı

### BƏLƏDİYYƏLƏRƏ TORPAQ SAHƏLƏRİNİN XƏRİTƏSİ VERİLMƏYİB

Əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev bildirib ki, uzun illər tikinti sahəsində mövcud olan pərakəndəlik qanunsuz tikililər problemini daha da dərinləşdirib. Zamanında bu sahə ilə bağlı bir çox qurum sərəncam vermək hüququna malik idi: "Məsələn, 2000-ci ildən bələdiyyələrə torpaq satmaq hüququ verilmişdi. Həmin dövrdən başlayaraq 2007-ci ilə qədər bələdiyyələr vətəndaşlara torpaq satırdı. Amma bələdiyyələrə satmaq üçün torpaq sahələri ayrılsa da, onların xəritəsi verilməmişdi. Bu torpaqlar hansısa bir dövlət təşkilatının və ya qurumun balansında idi. Əslində bələdiyyələr həmin torpaqları satarkən kadastr planı, yerləşdiyi koordinatları göstərməli idilər. Bu koordinatları isə Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi təmin etməli idi. Zamanında proses düzgün aparılsaydı, sənədsiz tikililər problemi bu qədər dərinləşməzdi".

Ekspert vurğulayıb ki, vaxtilə müxtəlif qurumların sərəncamları əsasında vətəndaşlara ayrılan torpaq sahələri artıq böyük yaşayış massivlərinə çevrilib. Amma bəzi qurumlar qadağan olunmuş ərazilərdə də torpaq satışları həyata keçiriblər: "Təbii ki, amnistiya nəzərdə tutulsa belə, həmin əmlaklara çıxarış verilməyəcək".

## BAZARDA İPOTEKA PREDMETİ OLAN UCUZ ƏMLAKLARIN SAYI ARTACAQ

E.Fərzəliyevin fikrincə, "əmlak amnistiyası" daşınmaz əmlak bazarında canlanmaya səbəb olacaq: "Məlumdur ki, əmlakların satış qiymətlərində ciddi artımlar var. Fərdi həyət evlərinin qiyməti bina evləri ilə müqayisədə daha ucuzdur. Əvvəllər bazarda nağd alıcıların sayı da kifayət qədər idi. İndi isə vətəndaşların çoxu, xüsusilə gənc ailələr kreditlə mənzil almağa üstünlük verirlər. Statistikaya görə, son illər əmlakların böyük əksəriyyəti, təqribən 60 faizindən yuxarı hissəsi ipoteka və digər kreditli şərtlərlə satılıb. İpoteka və Zəmanət Fondunun ayırdığı kreditlərin təqribən 90 faizindən çoxu bina evlərinə şamil olunub, 5-7 faizi isə həyət evlərini əhatə edib. Daşınmaz əmlakın kreditlə satıla bilməsi üçün onun mütləq şəkildə mülkiyyət hüququnu təsdiq edən sənədi olmalıdır. Bələdiyyə torpaqları üzərində tikilmiş evlərin böyük əksəriyyətinin çıxarışı olmadığından vətəndaşların daha ucuz qiymətə geniş yaşayış sahələrini kredit vasitəsilə əldə etmək imkanını məhdudlaşdırır. Məsələn, hazırda Bakı şəhərinin istənilən metro stansiyasına yaxın yeni tikili binalarda birotaqlı təmirli mənzillərin qiyməti təxminən 100-160 min manat arasında dəyişir. Köhnə tikili binalarda isə bu qiymət 70-90 min manat arasındadır. Hərçənd ki, 90-100 min manata gözəl şəraitli, 3-4 otaqlı həyət evi almaq olar. Amma vətəndaşlar belə evləri kreditlə ala bilmirlər. Çünki çıxarış yoxdur. Bu baxımdan, əgər sözügedən amnistiya reallaşsa, bazarda ipoteka predmeti olan ucuz əmlakların sayı artacaq. Bu da öz növbəsində əmlak bazarında ciddi canlanmaya səbəb olacaq".


Elnur Fərzəliyev

“AİLƏ” RUBRİKAMIZIN QONAQLARI AZƏRBAYCANLI GÜNAY RƏHİMOVA VƏ RUMINİYALI VLAD MİTOCDUR

SÖHBƏTLƏŞDİ

ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

# VİRTUAL DÜNYADA BAŞLAYAN EŞQ





**Günay:** “Biz Azərbaycanda qaldığımız dövrdən Vlad mənə ev işlərində kömək edir. İndi də eynidir. Ümumiyyətlə evdə yeməkləri o bişirir. Hətta şirniyyatları, salatları da hazırlayır”.

**Vlad:** “Azərbaycana ilk dəfə 2022-ci il dekabrın 24-ü gəlmişdim. Günayı görmək üçün iki gün yol qət etmişdim. Sevdiyim xanımı görəndə yol yorğunluğunu, çətinliyi, həyəcanı unutdum”.

Belə bir deyim var ki, insanların qisməti hələ onlar doğulmamışdan yazılır. Nə etsələr də, qisməti dəyişmək mümkün olmur. Elə bizim qonaqlarımız kimi. Hansı ki, özləri cavan olsa da, sevgiləri uzun mübarizələrdən keçib. Kənardan müxtəlif müdaxilələr olsa da, onlar bir-birilərini heç bir zaman buraxmayıblar. Bütün çətinliklərə bərabər sinə gərdikləri üçün də hazırda xoşbəxt ailələri var. “Ailə” rubrikamızın qonaqları azərbaycanlı Günay Rəhimova və rumıniyalı Vlad Mitocdur. Biz də sevgilərini onların dilindən sizə çatdırmağa çalışdıq.

## TƏSADÜF NƏTİCƏSİNDƏ BİRLƏŞDİLƏR

Cütlüyü tanış edən onların dil öyrənmək istəyi olub. Vlad və Günay 2020-ci ildən tanış olsalar da, yeni ailə qurublar.

Günay: “Tanışlığımız sosial şəbəkə üzərindən olub. Mən 2020-ci ildə - koronovirus dövründə Azərbaycan Dillər Universitetində Norveçşünaslıq ixtisasında təhsil alırdım. Dil öyrənməli idim, çünki Norveçə getməyi planlaşdırırdım. İngilis dilini öyrənmək istəyirdim. Bir-birimizi dil öyrənərək tanımağa başlamışıq. Tanışlığımızın birinci ilində cəmi bir ay danışmışdıq. Sonra əlaqələrimiz kəsildi. Bir il sonra çox qəribə şəkildə tanımadığım rumıniyalı vasitəsilə yenidən Vladı tapdım”.

Vlad isə deyir ki, Günay onu yenidən axtarıb tapdıqda bunun bir işarə olduğunu anlayıb: “Bir il sonra yenidən yazması məni çox təəccübləndirmişdi. Düşündüm, görəsən hansı xüsusiyyətim onun xoşuna gəlib ki, bir il sonra məni yenidən tapıb. Halbuki unuda da bilərdi”.

## GÜNAYA GÖRƏ HƏTTA DİNİNİ DƏ DƏYİŞİB

İlk başda fərqli millətlərdən olduqları üçün onlarda alınmayacağını düşünüblər, amma... Hətta ilk sevgi etirafını da Günay edib: “Yenidən danışmağa başladıq. Lakin münasibətimiz bu dəfə də yarımçıq qaldı. Dinlərimiz fərqli olduğu üçün düşüncələrimizin uyğun gəlmədiyini düşünmüşdüm. Fikirləşdim ki, bizdə alınmaz. Yarım il sonra yenidən danışmağa başladıqda ilk sevgi etirafını mən etdim. Dost olduğumuzda mənə dinini əsla dəyişməyəcəyini bildirmişdi. Amma sevgili olduqdan sonra özü müsəlmanlığı qəbul etdi, şəhadət gətirdi. Hətta bizim dini nikahımız da oldu”.

Günayın sevgisini etiraf etməyi Vladı da çox təəccübləndirib. Həm də hisslərində əmin olmasına kömək olub: “Günayın mənə qarşı hissləri olduğunu əvvəldən duymuşdum. Uzun müddət davam edən dostluğumuz, bir-birimizi mükəmməl şəkildə anlamağımız onu seçməyimə səbəb oldu. Artıq hiss etdim ki, axtardığımı tapmışam”.

## “İLK GÖRÜŞDƏ ÖZÜMÜ BİR AZ QƏRİBƏ HİSS EDİRDİM”

Dostluqdan sevgili dönəminə keçid Vladın Azərbaycana gəlişi ilə nəticələnib. Günay həmin anları belə xatırlayır: “Bir il internet üzərindən danışırdıq. Sonra Vlad Azərbaycana gəldi. İlk görüşdə özümü bir az qəribə hiss edirdim, canlı görüşə uyğunlaşmağa çalışırdım. Həmişə mənə sual verirdi ki, “bir-birimizi realda bəyənməsək, necə olacaq?” Vladın məni görəndə ilk cümləsi “realda qat-qat gözəlsən” olmuşdu. Görüşəndən sonra sevgi bağlarımız daha da gücləndi”.

Vlad isə bildirir ki, Rumıniyadan Azərbaycana gəlmək üçün iki gün yol qət etməli olub: “Azərbaycana ilk dəfə 2022-ci il dekabrın 24-ü gəlmişdim. Günayı görmək üçün iki gün yol qət etmişdim. Sevdiyim xanımı görəndə yol yorğunluğunu, çətinliyi, həyəcanı unutdum”.

## “GÖRÜŞƏ BİLMİRDİK, DARIXIRDIQ”

Bir tərəfdən sevdiyindən uzaqda olmaq, digər tərəfdən kənardan insanların müdaxiləsi gənclərin yükünü daha da ağırlaşdırıb. Günay üzləşdikləri çətinliklərdən danışır: “Çalışırdım ətrafdakıların fikirlərini nəzərə almayım.

> Qayınanam və qayınatam Azərbaycanı, şəhərimizi, yeməklərimizi, adətlərimizi Vladdan da çox bəyənirlər. Azərbaycana gəlmək üçün planlar qururlar.



Amma istər-istəməz təsir edirdi. İnsanlar xarici vətəndaş olduğu üçün güvənmirdilər. Uzaq məsafədən münasibət bizim üçün çətin gəlirdi. Görüşə bilmirdik, darıxırdıq. İlk dəfə gəldikdən sonra yenidən qayıtdı. Vlad yol boyu ağlamışdı...”

Vladın sözlərinə görə, əgər sevgi varsa, həyatda heç nə çətin deyil: “Günaydan ötrü çox darıxırdım, amma müsbət düşünməyə çalışırdım ki, əvvəl-axır görüşəcəyik. Şükürlər olsun ki, hazırda bir yerdəyik. Uzaq məsafədən münasibət çətindir, amma mümkünsüz deyil. Əgər həqiqətən istəyirsinizsə, onu mümkün hala gətirə bilərsiniz”.

## AĞ ŞƏHƏRDƏ EVLİLİK TƏKLİFİ

Azərbaycana sevdiyini görmək üçün gələn rumıniyalı kürəkən sən demə, əliboş gəlməyib. Günay deyir, Vlad yeni ilə tək daxil olmaq istəməyib: “İlk görüşümüzün üzərindən bir həftə keçdi. Yeni il günü fişənglər partladıqdan sonra Ağ şəhərdə hər kəsin içərisində diz çökərək evlənmə təklifi etdi. Mənim üçün çox böyük sürpriz oldu, çünki heç gözləmirdim. İstədim ki, o, geri qayıtmadan öncə münasibətimizi rəsmiləşdirək və nişanımız oldu”.

Vlad özü də etiraf edir ki, ölkəmizə gəliş məqsədi sevdiyi xanımı həyat yoldaşı etmək idi: “Münasibətimizin əvvəldən ciddi olacağını düşündüyümüzə görə evlilik təklifi edəcəyimi bilirdim. Azərbaycana gəldikdə də artıq Günayla ailə qurmaq istəyirdim”.

## “VLAD ANAMA AZƏRBAYCAN DİLİNDƏ “ANA” DEYİR”

Günayın sözlərinə görə, münasibətlərindəki maneələrdən biri onun anası olub, lakin sonradan Vladı oğlu kimi çox sevib: “Atam münasibətimizi normal qarşılamışdı. Mənə demişdi ki, əsas sənin sevməyindir. Xeyir-dua da vermişdi. Anamın reaksiyası isə daha sərt olmuşdu. Xarici vətəndaşa güvənmədiyi üçün münasibətimizə qarşı çıxmışdı. Vlad Azərbaycana gələnə qədər anama münasibətimizin ciddiliyini izah etməyə çalışırdım. Nəhayət, o da şans verdi. Dedi ki, gəlsin görüm necə biridir. Amma Vladın ilk gəlişi zamanı onu tanıyanda hətta məndən də çox istədi. Anam və Vlad bir-birilərinə çox bağlıdırlar. Vlad anama Azərbaycan dilində “ana” deyir”.

Vladın ailəsi isə ilk gündən Günayı çox bəyənib: “İlk dəfə anasından utanırdım. Amma onun çox xoş xarakteri olduğunu gördükdən sonra özümü daha rahat hiss etməyə başladım. Amma mənim valideynlərim heç bir problem yaratmadı. Onlara bəhs etdikdən sonra görüntülü zənglə danışdıq. Günayı çox bəyənmişdilər və münasibətimizi dəstəkləmişdilər”.

## “DÜŞÜNMƏZDİM Kİ, NƏ VAXTSA TOY EDƏRƏM”

Günay deyir ki, həm Vlad, həm də ailəsi toy adətlərimizi çox bəyənir: “2023-cü ilin sentyabrın 29-dan martın 29-a kimi ölkəmizdə qaldı. Bu müddət ərzində nikahımız oldu. Sentyabrda Vladla bərabər ailəsi də gəlmişdi. Oktyabr ayında toyumuz oldu. Yavaş-yavaş ailəsiylə qaynayıb qarışmağa başladıq. Qayınanam və qayınatam da toyumuzu çox bəyənmişdi. Deyirdilər, hər şey çox sadədir. Rumıniyada gəlin və bəy çılğınlıq edir, amma bizdə hər şey daha çərçivəli idi. Qonaqlar Vladı Azərbaycan mahnılarına oynadırdılar. O da birtəhər oynamağa çalışırdı. Mən onu utancaq biri kimi tanıyırdım. Amma toyda gəlib deyirdi ki, çox əylənir. Mahnılarımız sümüyünə düşürdü...”.

Vlad isə Azərbaycan toylarının daha sakit və maraqlı keçdiyini təsdiqləyir: “Toy adətlərimiz bir qədər oxşardır. Amma mən Azərbaycan toylarını daha çox bəyənirəm. Rumıniyadakı toylarda özümü bir az yorğun hiss edirdim. Amma sizdə elə deyil. Toylarınız daha sakitdir. Düşünməzdim ki, nə vaxtsa toy edərəm. Amma Azərbaycanda toy etmək çox xoş oldu”.

## “BAKININ GÖRÜNÜŞÜNÜ ÇOX BƏYƏNİRƏM”

Rumıniyalı kürəkən Azərbaycana ilk dəfə gəlsə də, ölkəmizi çox bəyənib: “Ölkəniz haqqında heç bir təsəvvürümüz yox idi. Hələ ki Bakıdan başqa heç yerə getməmişik. Amma Bakının görünüşünü, tikililəri, küçələri, insanlarını çox bəyənirəm. İnsanlarınız xoşrəftar, qonaqpərvərdir. Məni Azərbaycanda qonaq çağırırdılar. Sizdə hər şey çox səliqəlidir. Binalarınızın quruluşu, düzülüşü sırayladır. Bulvarı, Dağüstü parkı çox bəyənirəm. Dağüstü parkın pilləkənlərini çıxmaqdan yorulmuram. “Alov qüllələri” də çox xoşuma gəlir. Biz yoldaşımla Qız qalasına çıxmışdıq. Qız qalasının tarixi ilə maraqlanırdım”.

Vlad hətta musiqilərimiz və dilimizlə də maraqlanırmış. Günayın sözlərinə görə, o, dilimizdə müxtəlif ifadələrdən də istifadə edir: “Musiqilərimizdən dinləyir. Daha çox keçmiş musiqilərə üstünlük verir. Dilimizi də Azərbaycanda qaldığı dövrdə az-çox öyrəndi. Gündəlik istifadə olunan sözlərlə danışa bilir. Hər dəfə anamı gördükdə “Sabahınız xeyir”, “Axşamınız xeyir”, “Gecəniz xeyrə” deyir”.



## “ONLARI BİZDƏ OLAN KİLSƏYƏ APARMIŞDIM”

Günay deyir ki, ölkəmizi bəyənən tək Vlad deyil: “Qayınanam və qayınatam Azərbaycanı, şəhərimizi, yeməklərimizi, adətlərimizi Vladdan da çox bəyənirlər. Azərbaycana gəlmək üçün planlar qururlar. Mən onları bizdə olan kilsəyə aparmışdım və xoşlarına gəlmişdi. Bayramlarımıza hörmət edirlər. Novruz Bayramında Rumıniyaya gəldikdə özümlə şəkərbura və paxlava gətirmişdim. Çox bəyənmişdilər”.

Günay bildirir ki, özünü yaxşı hiss etmədiyi zamanlarda, süfrəyə əyləşmədikdə Vladın anası ona ayrıca yemək gətirir. Atası meyvə doğrayır: “Məni qızları olaraq görürlər. Ailələrimiz bir-birinə çox düşkündürlər. Qayınanam və anam bir-birilərini çox sevirlər”.

## RUMINİYALI AİLƏNİN DƏYİŞƏN MENYUSU

Günayın sözlərinə görə, ölkəmizin yeməkləri də dillərə dastandır. Elə Vlad da mətbəximizə aşiq olanlardandır: “Plovumuzu, üzərinə qoyduğumuz kişmişli qaranı çox bəyənir. Paytaxt salatımızı çox sevir. Mimoza, nar salatımızı da bəyənir. Yeməyin yanında kompot içməyi sevir. Bir də ən çox bəyəndiyi lavaşımızdır. Vlad mürəbbə hazırlamağı çox sevir. O vaxt mənə hazırladığı mürəbbələri göstərirdi. Amma onlarda mürəbbə fərqlidir. Biz çay ilə içirik, onlar isə çörəyin üzərinə yaxıb yeyirlər. Anamdan mürəbbəmizi bişirməyin yolunu öyrəndim və Vlada izah etdim. Birlikdə bişirdik, qayınanamgil də çox bəyəndi. Artıq çayı mürəbbə ilə içirlər. İki həftə Azərbaycanda olduqda çaya öyrəşmişdilər. İndi burada da hər axşam çay içmək istəyirlər”.

Vlad isə deyir ki, yeməklərimizi o qədər bəyənir ki, hətta özü də hazırlayıb təqdim etmək istəyir: “Amma hələ vaxt tapıb hazırlaya bilməmişəm. Gələcəkdə plov bişirmək istəyərdim. Hətta düyü də almışıq ki, plov bişirək”.

## BƏRABƏRLİKDƏN DOĞAN HÖRMƏT VƏ SEVGİ

Günay Vladın yemək bişirməklə bağlı məharətlərindən də bəhs etdi: “Biz Azərbaycanda qaldığımız dövrdən Vlad mənə ev işlərində kömək edir. İndi də eynidir. Ümumiyyətlə, evdə yeməkləri o bişirir. Hətta şirniyyatlar, salatları da hazırlayır. Yeməkləri də çox dadlıdır. Hətta qonaqlar belə onun yeməklərini çox sevir. Ən dadlısı isə şirniyyatlarıdır”.

Elə Günaya da onu sevdirən məhz bu xasiyyəti olub: “Vladın bəyəndiyim özəlliklərindən ən birincisi qadın azadlığına dəyər verməsidir. Mənim üçün qadının təhsil alması önəmlidir. İlk təsirləndiyim də elə məhz bu idi. Hiss etmişdim ki, ailə qursaq da, bu bərabərlik bizim aramızda olacaq. Bütün qərarlarımı dəstəkləyir, mən ondan ilham alıram, özgüvənim artır”.

Vlad isə Günayda bir neçə fərqli xüsusiyyətin eyni anda toplandığı üçün onu həyat yoldaşı olaraq seçib: “Sadə və eleqant olmağı bir arada bacardığı üçün ona aşiq oldum. Həm də əyləncəlidir. Bir insanda bu qədər xüsusiyyəti bir arada tapdığım üçün bildim ki, o, mənim yarımdır”.

# DÖRDÜ DƏ UĞURLU NƏTİCƏ GÖSTƏRDİ

Cəlilabad rayonundan olan bir ailənin dörd üzvünün - ana və üç qızının yüksək bal toplaması onların sorağını bütün respublikaya yayıb. Asya Yusifova və qızları Mehriban, Günel və Aygün sertifikatlaşdırma imtahanında ixtisas fənnindən yüksək bal toplayıblar.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Təhsilverənlərin peşəkarlıq səviyyələrinin və peşə yararlılıqlarının yoxlanılması məqsədilə aparılan sertifikatlaşdırma prosesinin test imtahanı mərhələsinin ilk gününə cəlb olunan riyaziyyat fənn müəllimləri yüksək nəticələrlə fərqləniblər.

Cəlilabad rayonundan olan bir ailənin dörd üzvü - ana və üç qızının yüksək bal toplaması "riyaziyyat müəllimləri" kimi tanınan ailənin sorağını bütün respublikaya yayıb. Asya Yusifova və qızları Mehriban Şikarlı, Günel Şikarlı və Aygün Şikarlı sertifikatlaşdırma imtahanında ixtisas fənnindən -riyaziyyatdan 50 bal (+metodika) toplamalarını peşələrinə olan sevgi ilə bərabər, şagirdləri qarşısında məsuliyyət kimi dəyərləndirirlər.

Serifikatlaşdırma imtahanının əhəmiyyəti, tədrisdəki rolu və cəmiyyətdə bu prosesə birmənalı olmayan münasibətlərə aydınlıq gətirmək üçün onlarla əlaqə saxladıq.

### ÇALIŞIN, SAYILIB-SEÇİLƏN MÜƏLLİM OLUN...

Cəlilabad rayon Nizami adına şəhər 1 saylı məktəb-liseyin 62 yaşlı müəllimi Asya Yusifova (58 bal) sertifikatlaşdırma imtahanında könüllü iştirak edib: "Sosial platformalarda "sertifikatlaşdırma imtahanı müəllimlər üçün bir tələdir" yazırdılar. Mən həmişə bunun əleyhinə olmuşam", - deyə bildirən Asya xanım bu imtahanı müəllimlərin peşəkarlıqlarının artırılmasından ötrü vacib hesab edir: "Qızlarım işə qəbul olan vaxtı MİQ imtahanı yox idi. Onların dərs saatı az olurdu. Bir növ işlərinə qiymət verilmirdi. MİQ imtahanı başlayandan sonra qızım Aygün imtahan verdi və bu, onu fərqləndirdi. Biz şəffaflığa görə sevindik. Əvvəlcə diaqnostik qiymətləndirmə oldu. Qızlarım yüksək bal topladı və dərs saatları artdı. Bu, artıq işə və savada qiymət verilməsi baxımından bizim üçün kifayət idi. Sertifikasiya imtahanına da həvəslə hazırlaşdıq. Məsələnin digər tərəfi - əmək haqqına 35 faiz artımın olması bizdə bir az da stimul yaratdı. İllərlə sinif otaqlarında dərs keçən müəllim kimi sevinirik ki, imtahan nəticələrimiz də yaxşı oldu". A.Yusifova imtahana könüllü qatılmasını belə izah edir: "Mənim valideynlərim də müəllim olub. Atam həmişə deyərdi ki, yaşından asılı olmayaraq müəllim işləyirsinizsə, çalışın işinizin peşəkarı olun".



Foto: Tapdıq Abdullayev /Global Media Group

A.Yusifova sertifikatlaşdırmadan keçə bilməyən müəllimlərin təcrübəsini uğursuz saymır: "Ola bilsin ki, həyəcan keçiriblər. Çünki işi itirmək qorxusu vardı. Bundan əvvəl ibtidai sinif müəllimlərinin işlərini itirməsi onlarda psixoloji durum yaradıb və bu, onlara emosional təsir edib".

A.Yusifova özünün və ailə üzvlərinin test imtahanında fərqlənməsini özləri üçün mənəvi üstünlük sayır: "Övladlarım MİQ imtahanından sonra bir daha öz sözlərini dedilər. Aldığımız təbriklər valideyn və müəllim olaraq mənim üçün çox qürurvericidir".

Mehriban Şikarlı (58 bal) 18 ildir Cəlilabad rayon Nizami adına şəhər 1 saylı məktəb-liseydə riyaziyyat müəllimi kimi çalışır. Hesab edir ki, serifikatlaşdırma müəllimin fəaliyyətinə yalnız stimuldur: "Artıq 18 ildir işləyirəm. Dərs bölgüsü müəyyən qaydaya görə aparılırdı. Bu sistemdə müəllimi həvəsləndirən hansısa bir amil yox idi. Diaqnostik qiymətləndirmə keçiriləndən sonra məktəb üzrə 60 mümkün baldan 54 bal topladım. Yaxşı nəticədən sonra həm müəllimin dərs saatı artır, həm də uşaqlar içərisində nüfuzu qalxır. Həm də daha həvəslə işləyirik. Dərs kitabı çərçivəsindən çıxırıq, daha çox öyrənmək istəyirik".

## "60 SUALI BİR SAAT ƏRZİNDƏ BİTİRMİŞDİM"

M.Şikarlı deyir ki, metodika istisna olmaqla imtahana xüsusi hazırlaşmayıb: "Hesab edirəm ki, suallar üçün xüsusi hazırlığa ehtiyac yoxdur. Mən 60 sualı bir saat ərzində bitirmişdim. İki sual üzərində tərəddüdlərim və ya həyəcanım olmasaydı, əslində 60 bal toplaya bilərdim. Riyaziyyatdan - ixtisasdan 50 bal toplamışam. Müəllimlərin "çətindir" fikirlərinə rəğmən, deyə bilərəm ki, bizi çətinliyə salan hər hansı nüans yox idi". M.Şikarova sertifikatlaşdırma ilə bağlı yayılan birmənalı olmayan fikirlərə də münasibətini bildirir: "Müəllimlər arasında "müəllimləri işdən çıxarmaq üçün sertifikatlaşdırma keçirirlər" kimi düzgün olmayan fikirlər formalaşıb. Amma imtahan prosesində müəllimlər üçün hər hansı bir tor qurulmamışdı ki, onlar çaşsın. Fikrimcə, ixtisasını yaxşı bilən bütün müəllimlər o sualları cavablandıra bilərlər. Ola bilsin, hansısa müəllim emosiyalarını cilovlaya bilmir, daha çox həyəcan keçirir, yalnız onda problem meydana çıxar..."

M.Şikarlının fikrincə, sertifikatlaşdırmanın nəticəsinə uyğun olaraq əmək haqqında 35 faiz artımın olması da müəllimlər üçün önəmlidir.

## "MÜƏLLİMİN BALI YÜKSƏKDİRSƏ..."

Cəlilabad rayon Nizami adına şəhər 1 saylı məktəb-liseydə çalışan Günel Şikarlı (59 bal) hesab edir ki, sertifikatlaşdırma ilk növbədə müəllimlərdə özünə inam hissi yaradır: "16 illik iş təcrübəm var. Dəfələrlə MİQ imtahanında iştirak etmişəm. Amma bu situasiya başqadır: 59 balı görəndə müəllimdə yaranan inam və özgüvən hissi çox fərqlidir. Bu, mənəvi hissdir. Eyni zamanda, 35 faiz əmək haqqının artırılması da maddi baxımdan böyük dəstəkdir. Sertifikatlaşdırmadan keçmək müəllimin şagirdlər, valideynlər və həmkarları arasında, o cümlədən cəmiyyətdə nüfuzunu yüksəldir. Hazırda cəmiyyətdə "müəllimin balı yüksəkdirsə, demək keçdiyi dərs də effektlidir" fikri mövcuddur".






### MADDİ VƏ MƏNƏVİ DƏSTƏK

Cəlilabad rayon 9 saylı orta məktəbdə 7 ildir riyaziyyat fənnini tədris edən Aygün Şikarlı (53 bal) hesab edir ki, sinfə daxil olan, fənnini tədris etməyi bacaran hər bir müəllim verilən sualların öhdəsindən gələ bilər: "Suallar 5-11-ci siniflər riyaziyyat kursunu əhatə edir - asan və orta tərtibatlı idi. Fikrimcə, ixtisasını yaxşı bilən müəllim bu sualları cavablandırmağı bacarmalıdır".

A.Şikarlı hesab edir ki, sertifiaktlaşdırma müəllimin inkişafı üçün müsbət addımdır: "Sertifikatlaşdırmadan yüksək bal toplayanda sinfə daha özgüvənli şəkildə daxil oluruq. Bu, bizi stimullaşdırır. Həmçinin daim öz üzərimizdə işləmək lazım olduğunu diktə edir".




## SOCAR maliyyə göstəricilərini açıqlayıb

Qlobal iqtisadi aktivliyin zəifləməsinə, geosiyasi proseslərə, enerji bazarlarında baş verən volatilliyə, habelə xam neft və təbii qaz qiymətlərinin kəskin aşağı düşməsinə baxmayaraq, Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) 2023-cü ili qənaətbəxş nəticələrlə başa vurmağa nail olub. "Report" xəbər verir ki, bu barədə SOCAR-ın 2023-cü il üzrə konsolidasiya edilmiş maliyyə hesabatında bildirilib.

Hesabata əsasən, 2023-cü ildə SOCAR-ın ümumi dövriyyəsi 85,2 milyard manat, ümumi mənfəəti 8,6 milyard manat, xalis mənfəəti isə 2,1 milyard manat təşkil edib. Şirkətin gəlirlərinin əsas hissəsi xam neft, neft və kimya məhsulları, təbii qaz satışından əldə edilib.

Hesabat ilində SOCAR-ın cari aktivləri 22,9 milyard manat, ümumi aktivləri 72 milyard manat təşkil edib. Bu xüsusda, şirkətin uzunmüddətli aktivləri 3,4% artımla 49 milyard manata, cəmi kapitalı 4,5% artaraq 34,8 milyard manata yüksəlib.

Hesabat dövründə SOCAR-ın cari öhdəlikləri 32,4% azalaraq 19,6 milyard manat, uzunmüddətli öhdəlikləri 5,3% azalaraq 17,6 milyard manat, ümumi öhdəlikləri isə 21,9% azalaraq 37,1 milyard manat təşkil edib.

Qeyd edək ki, SOCAR-ın 31 dekabr 2023-cü il tarixinə konsolidasiya edilmiş maliyyə hesabatına beynəlxalq audit şirkəti olan "Ernst & Young Holdings (CIS) B.V." tərəfindən dəyişilməmiş (təmiz) rəyi verilib.

# İNVESTORLARIN RİSKLƏRİ SIĞORTALANACAQ

"Əmanətlərin sığortalanması haqqında" qanuna investisiya şirkətləri üzrə yatırımların sığortalanması ilə bağlı dəyişikliklər hazırlanır. Dəyişikliklərdən sonra ödəmə qabiliyyətini itirmiş investisiya şirkətlərində investorların pul vəsaitlərinin və maliyyə alətlərinin itirilməsi riski sığortalanacaq.



Azərbaycanda ödəmə qabiliyyətini itirmiş investisiya şirkətlərində investorların pul vəsaitlərinin və maliyyə alətlərinin itirilməsi riski sığortalanacaq. "Report"un Azərbaycan Mərkəzi Bankına (AMB) ünvanlandığı sorğuya əsasən, bu, "Əmanətlərin sığortalanması haqqında" qanuna investisiya şirkətləri üzrə yatırımların sığortalanması ilə bağlı dəyişiklik layihəsində öz əksini tapıb.

### ƏMANƏTLƏRİN SIĞORTALANMASI FONDUNUN ADI DƏYİŞDİRİLİR

"Layihədə kompensasiya hadisəsi, sığortalanan investisiyaların əhatə dairəsi, müvafiq kompensasiya fondunun yaradılması, investisiya şirkətlərinin üzvlüyə qəbul edilməsi, fonda üzvlük haqlarının ödənilməsi və kompensasiyaların verilməsinə dair müddəalar müəyyən edilib. Hazırda layihənin aidiyyəti dövlət qurumları ilə müzakirəsi davam etdirilir və yaxın vaxtlarda tamamlanması gözlənilir", - AMB qeyd edir.

Bildirilir ki, investisiyaların sığortalanması mexanizmi Mərkəzi Bank və Əmanətlərin Sığortalanması Fondu (ƏSF) tərəfindən birgə hazırlanaraq, ƏSF tərəfindən tətbiq ediləcək. "Report"un digər mənbədən əldə etdiyi məlumata görə, bu dəyişikliklər nəticəsində ƏSF-in adının dəyişdirilməsi də nəzərdə tutulur.

### HAZIRDA 23 BANK ƏSF ÜZVÜDÜR

Xatırladaq ki, ƏSF 2007-ci ilin 12 avqust tarixindən fəaliyyətə başlayıb. Hazırda 23 bank Fondun üzvüdür. İştirakçı banklar ƏSF-in reyestrinə daxil olarkən birdəfəlik üzvlük haqları ödəyir, sonra isə təqvim haqlarının ödənişini həyata keçirirlər.

Təqvim haqları iştirakçı bankların fondun reyestrinə daxil olunduğu gündən başlayaraq, birinci ildə qorunan əmanətlərin rüb ərzində orta günlük qalıq məbləğinin 0,15%-i, 2008-ci ilin III rübündən etibarən isə 0,125%-i həcmində, əmanətlərin valyutasında ödənilir. Əmanətlər ABŞ dolları və ya avroda olmadıqda isə bu valyutaların biri ilə Mərkəzi Bankın müvafiq valyutalar üzrə müəyyən etdiyi rəsmi məzənnələr əsasında hesablanmış çarpaz məzənnə üzrə hesablanır və ödənilir.

Təqvim haqları bankın fondun iştirakçı bankların reyestrinə daxil edildiyi gündən bank lisenziyasının ləğv edildiyi günədək ödənilir. ƏSF-in sığorta ehtiyatları qorunan əmanətlərin 5%-inə çatdıqda, Himayəçilik Şurası iştirakçı banklar tərəfindən ödənilən təqvim haqlarının azaldılması və ya ödənilməsinin dayandırılması barədə qərar qəbul edə bilər.

### MANAT ƏMANƏTLƏRİ ÜZRƏ 12% SIĞORTA

Fondun Himayəçilər Şurasının 1 iyun 2020-ci il tarixli qərarına görə, Azərbaycanda əmanətlərin illik sığortalanma faizi manat əmanətləri üzrə 12%, xarici valyuta əmanətləri üzrə isə 2,5%-dir. ƏSF tərəfindən hər bir iştirakçı bankda sığortalanmış əmanət üzrə əmanətin 100%-i həcmində, lakin 100 min manatdan çox olmamaq şərtilə kompensasiya ödənilir. Fiziki şəxslərin sahibkarlıq fəaliyyəti ilə əlaqədar açdığı bank hesablarındakı pul vəsaitləri üzrə kompensasiya 20 min manatdan çox olmamaqla, notariusların depozit hesablarında olan fiziki şəxslərə məxsus pul vəsaitləri üzrə kompensasiya isə həmin pul vəsaitlərinin 100%-i həcmində ödənilir. Milli valyutada olan əmanətlər üzrə kompensasiya manatla, xarici valyutada olan əmanətlər üzrə isə əmanətlərin valyutasında ödənilir.

Əmanətlər ABŞ dolları və ya avroda olmadıqda, kompensasiya bu valyutaların biri ilə sığorta hadisəsinin baş verdiyi günə Mərkəzi Bankın müvafiq valyutalar üzrə müəyyən etdiyi rəsmi məzənnələr əsasında hesablanmış çarpaz məzənnə üzrə hesablanır və ödənilir. Bir əmanətçinin bir bankda, o cümlədən bankın yerli filiallarında və şöbələrində bir neçə əmanəti olduqda, yaxud həm milli, həm də xarici valyutada əmanətləri olduqda, onlar toplanır və bir əmanət kimi manatla kompensasiya olunur.

# AZERCONNECT GROUP XÜSUSİ MÜKAFATA LAYİQ GÖRÜLÜB

Azərbaycanın ən böyük İKT şirkəti Azerconnect Group BMT-nin İnkişaf Proqramı tərəfindən "Gender İnklüziv İş yeri" mükafatına layiq görülüb.

Mükafat BMT-nin Qadınların Səlahiyyətlərinin Genişləndirilməsi Prinsiplərinə (QSGP) həsr olunan mərasimdə təqdim edilib. Tədbirdə Azerconnect Group tərəfindən həm şirkət daxilində, həm də cəmiyyətdə gender bərabərliyi və inklüziv mühitin inkişafı üzrə həyata keçirilən uğurlu layihələr, irəli sürülən təşəbbüslər barədə geniş məlumat verilib. Eyni zamanda, Azerconnect Group-un iki il ardıcıl olaraq nüfuzlu "Top Employers Institute" tərəfindən "Ən Yaxşı İşəgötürən" kimi seçilən yeganə yerli şirkət olduğu vurğulanıb.

Qeyd edək ki, Azerconnect Group 2022-ci ildə BMT-nin Qadınların Səlahiyyətlərinin Genişləndirilməsi Prinsiplərinə qoşulub. BMT-nin Qlobal Sazişi və BMT Qadınlar üzrə Agentliyi tərəfindən hazırlanan Qadınların Səlahiyyətlərinin Genişləndirilməsi Prinsipləri şirkətləri beynəlxalq əmək və insan hüquqları standartları barədə məlumatlandırır, həmçinin korporativləri gender bərabərliyi və qadınların səlahiyyətlərinin artırılmasına dəvət edir. QSGP Azərbaycanda BMT-nin İnkişaf Proqramının Cənubi Qafqazda Qadınların İqtisadi Səlahiyyətlərinin Artırılması layihəsi çərçivəsində həyata keçirilir.

Azerconnect Group ölkəmizin dinamik şəkildə inkişaf edən İKT və yüksək texnologiyalar sahələrində fəaliyyət göstərən şirkətdir. Azerconnect Group mobil, internet, beynəlxalq kanalların təşkili və FinTech, AdTech, Media/TV kimi rəqəmsal xidmətlər təqdim edir.

Azerconnect Group müxtəlif ölkələrdə enerji, telekommunikasiya, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən NEQSOL Holding beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

LİFTLƏRƏ BAXIMIN ZƏİF OLMASI QƏZALARIN SAYINI ARTIRIB

# YENİTİKİLİLƏRİN LİFT PROBLEMİ

Son günlərdə yenitikililərdə lift qəzalarının artması müşahidə olunur. Binalar yeni olsa da, liftlərin sıradan çıxması müəyyən suallar yaradır. Ekspertlər bunu bir sıra amillərlə əlaqələndirirlər.









AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

"Bakıda çoxmərtəbəli yaşayış binalarının birində lift qırılıb, beş nəfər xəsarət alıb", "Bakıda faciə: yaşayış binasında lift qırılıb, yeddi nəfər xəsarət alıb". Bu iki olay bir ay ərzində baş verib. Ümumiyyətlə, lift problemi Bakının sağalmayan yaralarından hesab olunur. Əvvəllər belə xəbərlərə daha çox köhnə Leninqrad, Kiyev layihəli tikililərlə bağlı rast gəlirdik. Dövlətin dəstəyi ilə köhnə liftlərin əksəriyyəti dəyişdirildi. İndi isə eyni problem yenitikililərdə baş qaldırıb. Üstəlik, daha ciddi şəkildə. Binalar yeni sayılsalar da, liftlərin çoxu köhnəlib, baxımsız hala düşüb. Yenitikililərin əksəriyyətində xidməthaqqı yığımında problemlər olduğundan liftlərə baxım zəifdir. Bu səbəbdən də, Bakıda onlarla qəzalı vəziyyətində olan lift ciddi təhlükə mənbəyinə çevrilib.

Bəs çıxış yolu nədir? Lift qəzalarını necə minimuma endirə bilərik?

### LİFTLƏR NİYƏ TEZ SIRADAN ÇIXIR?

Əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev deyir ki, bəzi yenitikililərdə liftlərin qəzalı olmasının səbəbi təmiri bitməmiş binanın istismara verilməsidir: "Xarici təcrübədə bu, belə deyil. Dünyanın əksər ölkələrində yenitikililər inşa olunarkən o binalardakı mənzillərin təxminən 80 faizi təmir olunduqdan sonra təhvil verilir. Yəni binada ağır işlər artıq tikinti şirkətləri tərəfindən görülür. Burada məqsəd odur ki, vətəndaşlar təmir zamanı ağır yükləri qaldırarkən liftləri zədələməsinlər. Bizdə isə fərqlidir. Sərnişin liftinə bir maşın sement yığıb qaldırırlar. Bina tikilib bitdikdən sonra bir neçə il təmir işləri gedir. Məhz həmin illər liftləri 10 il geri atır. Binada yaşayış tam təmin olunduqda liftlər artıq yararsız halda olur. Liftlərdə çəkisindən artıq yük daşımalara nəzarət isə yalnız A4 vərəqi üzərində olur".

### BİNA İDARƏÇİLƏRİ PUL XƏRCLƏMƏK İSTƏMİRLƏR

Mütəxəssis deyir ki, bütün yenitikili binaların idarəçiləri özəl lift mütəxəssisləri ilə işləməlidirlər: "Özəl şirkətlər var ki, liftlərə ödənişli xidmətlər göstərir, baxımını mütəmadi edirlər. O şirkətlərlə müqavilələr olmalı, liftlər monitorinq edilməlidir. Liftlərin motorları, trosları hər üç aydan bir yoxlanılmalı və rəy verilməlidir. Təbii ki, bu xidmətlər ödənişli olduğu üçün əksər hallarda binanı idarə edənlər pul xərcləmək istəmirlər. Bu da faciəvi nəticələrə gətirib çıxarır. Bu faciələrdən qorunmaq üçün aidiyyəti qurumlar liftlərə yoxlanışı məcburi etməli, lift mütəxəssisləri ilə işləməyən, baxımını etməyən binaların idarəçiləri cəzalandırılmalıdır. Hər ay yoxlanışdan keçməklə bağlı bina idarəçilərinin rəyləri olmalıdır".

Binaların əksəriyyətindəki xidməthaqqı yığımları probleminə gəldikdə isə, mütəxəssis bildirir ki, bütün yenitikili binalardan mənzil alan şəxslər bilirlər ki, aylıq kommunal pulu ödənilməlidir: "Paytaxt ərazisində, deməli olar ki, hər binanın aylıq ödəniş haqqı bəllidir. Bu qiymətlər binalardakı mənzillərin saxlanma xərcidir. Burada ikinci problem isə odur ki, əksər hallarda tikinti şirkətləri yığdıqları kommunal pullarını təyinatı üzrə xərcləmirlər. Yığılan kommunal pullarının ən azı 10 faizi büdcədə qalmalıdır. Büdcə formalaşmalıdır ki, gələcəkdə böyük xərclər olanda pulu sakinlərdən deyil, həmin o büdcədən götürsünlər".

## TƏHLÜKƏ POTENSİALLI OBYEKTLƏR

Təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyev deyir ki, liftlər təhlükə potensiallı obyektlər siyahısındadırlar: "İstər çoxmənzilli binalarda, istərsə də digər təyinatlı obyektlərdə liftlərin istismarı zamanı texniki təhlükəsizlik qaydaları, liftin layihələndirilməsi, quraşdırılması, montajı, liftlərə texniki qulluq yalnız ixtisaslaşmış müəssisə tərəfindən həyata keçirilməlidir. Nasazlıq varsa, aradan götürülməli, elektrik, əyləc sistemi mütəmadi yoxlanılmalıdır. Lift quraşdırılması zamanı istifadə olunan hər bir məhsulun istismar müddəti var. Ona görə də, detallar vaxtında dəyişdirilməlidir. Liftin olduğu yerdə mütləq onun istismarına cavabdeh şəxs olmalıdır".

## QƏZA RİSKİ YÜKSƏK OLAN LİFTLƏR

Mütəxəssis deyir ki, bəzi yerlərdə liftlər nasaz halda istismara buraxılır: "Lift nasazdırsa, mütləq dayandırılmalıdır. Qəzalar, əsasən, liftin normadan artıq yüklənməsi, elektrik sistemində nasazlığın olması, əyləc-tros sisteminin qırılması səbəbindən baş verir. Bu detalların hər birinin istismarı normativlərə uyğun olaraq həyata keçirilməlidir. Sakinlər liftə cavabdeh şəxs tərəfindən məlumatlandırılmalı, lövhələr qurulmalı, qaydalar müəyyənləşməlidir. Düzdür, bu texniki qurğudur və "heç vaxt qəza baş verməyəcək" demək qeyri-mümkündür, amma riskləri azaltmaq olar. İstismar müddəti başa çatan liftdə isə qəza riski yüksəkdir".

### LİFTLƏRLƏ BAĞLI ƏN CİDDİ PROBLEM

Həmsöhbətimizin sözlərinə görə, liftlərlə bağlı ən ciddi problem normadan artıq yüklənmədir: "Məsələn, sərnişin liftləri üçün ağırlıq təxminən 400-500 kiloqram, yüklər üçün bir ton nəzərdə tutulub. Bir dəfə normadan artıq yüklənmə ilə liftin qırılması mümkün deyil. Amma bu davamlı olduqda, artıq onun tros-əyləc sistemi sıradan çıxmağa başlayır və qəza baş verir. Gündəlik 300-400 adam üçün nəzərdə tutulan liftə 600 adam mindikdə o, dərhal qəzalı vəziyyətə düşmür, amma trosun istismar müddəti iki ildirsə, bir ildə bitir. İnsanlar bilməlidirlər ki, liftə saya uyğun daxil olmalı, lazımsız hərəkətlər etməməli, eyni anda düymələri sıxıb saxlamamalıdırlar".

Ekspert vurğulayır ki, müasir liftlərdə təhlükəsizlik sistemi daha güclüdür: "Məsələn, müasir liftlərdə normadan artıq yükləmə olarsa, lift dayanır, işləmir. İnsanlar istəsə belə, artıq yüklənmə edə bilmirlər, çünki bu zaman qapı bağlanmır. Yaxud mərtəbələrə ancaq kartla çıxmaq mümkündür. Belə liftlərdə qəza olduqda şaxtaya düşmək nadir hallarda baş verir. Çünki sistemin biri dayandıqda, digəri işləyir".



Elmar Nurəliyev

# GENEFONDUMUZU TƏHDİD EDƏN TƏHLÜKƏ



Uşaqlarda anadangəlmə qüsurların çoxalması narahatlıq yaradır. Buna səbəb kimi qohum evliliklərinin çoxalması, genetik faktorlar, zərərli vərdişlər göstərilir.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Uşaqlarda anadangəlmə qüsurlar çoxalıb. Bunu Səhiyyə Nazirliyi Səhiyyə siyasəti şöbəsinin Ana və uşaqların sağlamlığının qorunması sektorunun müdiri Aynurə Zeynalova parlamentdə "Sağlam ailə modeli və nikah hüququ" mövzusunda keçirilən ictimai dinləmədə çıxışı zamanı deyib. Bu, kifayət qədər ciddi bir məsələdir. Gələcəyimiz olan uşaqlar arasında anadangəlmə xəstəliklərin artmasına səbəb nədir?

**QOHUMLUQDAN GƏLƏN TƏHLÜKƏ**

Yeni Klinikanın Neonatologiya şöbəsinin müdiri, həkim Əkbər Quliyevin sözlərinə görə, anadangəlmə qüsurların çoxalmasının əsas səbəbləri qohum evliliklərinin artmasıdır: "Qohum evliliklərində genetik xəstəliklər, anadangəlmə qüsurlar, anomaliyalar çox sıx görülür. Ona görə də, bəzi xəstəliklərin skrininq testləri var ki, onlar evlənməmişdən öncə verilməlidir. Əgər iki cütlüyün talassemiya daşıyıcılığı varsa, onların evlənməsi təhlükəlidir. Çünki anadangəlmə talassemiya xəstəsi övladları ola bilər".

Ə.Quliyevin fikrincə, xəstəliklər erkən müəyyən olunduqda onların fəsadı daha az yaranır: "Hər bir xəstəliyin görülmə sıxlığı var. Erkən müalicəyə başlanılmalıdır ki, əqli gerilik və sair müşahidə edildikdə bunu önləmək olsun. Məsələn, anadangəlmə hipoterioz xəstəliyi var ki, bu topuq testi ilə müəyyənləşə bilir. Erkən müalicə olduqda uşaq böyüdükdən sonra yalnız dərman qəbul etməklə normal həyat fəaliyyətinə davam edir. Vaxtında aşkarlanmaması isə uşağın zəka geriliyinə səbəb olur".




**EHTİYATI ƏLDƏN VERMƏK OLMAZ**

Həkim bildirdi ki, həm hamiləlik zamanı, həm də ondan sonra hər bir uşaq nəzarət altında olmalıdır: "Hamiləlik mütləq izlənilməlidir. Hamilə olan zaman da skrininq, metobolik testlər sayəsində erkən diaqnoz qoyula bilər. Uşaq dünyaya gəldikdən sonra da həkim nəzarətində olması vacibdir. Bunun üçün poliklinikalarda qeydiyyata düşə bilərlər".

**SAYDA ARTIM VAR, ÇÜNKİ ARTIQ ÖLÜMLƏR AZDIR**

Neonatoloq-pediatr Yalçın Mirzəyev isə düşünür ki, uşaqlarda anadangəlmə xəstəliklərin artım səbəbi tibbin inkişaf etməsi ilə bağlıdır: "Anadangəlmə qüsurların texnologiyaların inkişafı ilə daha tez aşkarlanması mümkündür. Diaqnoz daha tez qoyulur deyə, elə zənn edilir ki, xəstəliyin sayında artım var. Amma onu da nəzərə alaq ki, artıq bu xəstəliklərdən əziyyət çəkən uşaqlar həyatda qala bilirlər. Əvvəlki illərdə daha çox ölümlər olurdusa, indi müasir tibb ilə daha uzun müddət yaşayırlar. Ölüm sıxlığı azaldığı üçün onların sayı da artır".

Y.Mirzəyev qeyd etdi ki, anadangəlmə qüsurlar müxtəlifdir. Onların həm əvvəldən aşkarlanması mümkün olan, həm də olmayan növləri mövcuddur: "Bu xəstəliklərin əksəriyyəti gözlə görə bildiyimiz somatik qüsurlarla özünü göstərir. Onların bir neçəsini hamiləlik zamanı müəyyən etmək olur. Amma elə xəstəliklər var ki, aşkarlanması mümkünsüzdür. Yalnız uşaq doğulduqdan sonra ortaya çıxan əlamətlərlə diaqnoz qoyulur. Bu xəstəliklərin yaranmasından yüz faiz sığortalanmaq mümkünsüzdür".

**GENETİK MÜAYİNƏ SIĞORTA İLƏ QARŞILANMIR**

Pediatr Aytən İsmayılzadə isə digər amilləri sadaladı: "Qohum evliliyindən başqa da bu xəstəliklərə səbəb olan faktorlar mövcuddur. Əgər nəsildə hər hansı genetik xəstəlik varsa, bunun da körpəyə keçməsi ehtimalı var. Ölkəmizdə çox insan talassemiya xəstəliyinin daşıyıcısıdır. Amma daşıyıcı olmaq xəstəlik deyil. Lakin iki daşıyıcı evlənərsə, dörd uşaqdan birinin xəstə doğulmaq ehtimalı var. Amma genetik müayinədən keçmək sığorta ilə qarşılanmır. Çox yaxşı olardı ki, vətəndaşlara bu baxımdan güzəşt edilsin. Bu xəstəliklər artır. Çünki DNT məlumatlarımız ətraf mühitin çirklənməsindən, şüalara məruz qalmaqdan, qidalanmadan dəyişikliyə məruz qalıb, pozulub. O səbəbdən, hətta yeni mutasiyalar, yeni gen dislokasiyaları da görə bilərik".

**SEVMƏDİYİMİZ PEYVƏND HƏYATIMIZI XİLAS EDİR**

Həkim bildirdi ki, nəzərə almadığımız xəstəliklər sonradan özünü uşaqlarda ağır hallarla göstərə bilir: "Qüsurlar adətən hamiləliyin ilk üç ayında yaranır. Bu dövrdə keçirilən infeksiyalar da problemlərə səbəb olur. Ana hamiləlik zamanı məxmərək, qızılca xəstəliyi, toksoplazma infeksiyasına yoluxarsa, bu zaman uşağın ürəyində, görməsində qüsurlar yarana bilər. Ona görə də, infeksiyalarla da vaxtında və düzgün şəkildə mübarizə aparmaq lazımdır. Peyvəndi hamiləlik zamanı vurdurmaq olmaz. Yəni hamiləlikdən öncə mütləq infeksiyalara qarşı peyvənd vurdurmalısınız. Uşağın sarılıq keçirməsi, doğuş zamanı xəsarət alması da qüsurlara gətirib çıxara bilər".

**ALUDƏ OLDUQLARIMIZIN GƏLƏCƏK ÖVLADLARIMIZIN HƏYATINDAKI ROLU**

A.İsmayılzadənin sözlərinə görə, anadangəlmə qüsurların tam müalicəsi yoxdur, dərmanları isə həddən artıq bahadır: "Mikrosefaliya, ürəyin ağır qüsurları, anensefaliya, serebral iflic ağır xəstəliklərdəndir. Mikrosefaliyada beyin inkişafdan qaldığı üçün baş balaca olur. Uşaq əqli inkişafdan qalır, əlil arabasına möhtac olur. Bəzi xəstələrə, məsələn kistoz-fibroz xəstələrinə dərmanlar ömürlük verilməlidir. Hətta, onların dərmanları kəsildikdə dünyalarını dəyişə bilirlər. Bu xəstəliklərin həm müalicəsi, həm də müayinəsi çox bahadır. Məsələn, SMA xəstəliyinin iynəsi ağrıları və ölümü önləsə də, bir çox xəstələrin onu almağa imkanı çatmır. Bu xəstəliklərin tam müalicəsi yoxdur". Həkim tövsiyə etdi ki, gənclər özlərini mütləq şəkildə qorumalıdırlar ki, sonradan belə fəsadlarla üzləşməsinlər: "Dünyaya övlad gətirmək istəyən cütlüklər pis vərdişlərdən uzaq dursunlar, alkoqollu, spirtli içkilərdən, siqaretdən kənar gəzsinlər. Bu, xüsusən də xanımlara aiddir. Tiroid tərkibli dərmanlardan istifadə də ziyandır".

Kaspi ÜÇ ƏSRİN QƏZETİ
Təsisçi
**Global Media Group**
Baş redaktor
**İlham Quliyev**
Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Könül Cəfərli, Sevinc Abbasova, İlhamə Əbülfət, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**
Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**
Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**
Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 1449
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# QANUN POZUNTUSU, YOXSA MÜŞTƏRİYƏ DƏSTƏK?

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti (DVX) pərakəndə ticarət və iaşə obyektlərində ödənişlərin kartdan karta köçürmə əməliyyatları ilə bağlı xəbərdarlıq edir. Bildirilir ki, bu üsul istehlakçıların hüquqlarının pozulmasıdır.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az




"POS-terminal işləmir", "POS-terminalın enerjisi bitib", "Texniki nasazlıq yaranıb"... Bunlar kartla ödənişi qəbul etməyən sahibkarların öz işçilərinə əzbərlətdirdikləri cümlələrdir. Sanki bütün obyektlər sözləşib eyni fikri deyirlər. "Nağd pulum yoxdur, necə edim" deyə soruşanda isə, kartdan karta köçürməyimizi istəyirlər.

Hətta bəzi kiçik sahibkarlar, xüsusilə də meyvə-tərəvəz dükanları bu metodu bir az da inkişaf etdirib, mağazanın divarına A4 vərəqində kartlarının nömrəsini açıq yazırlar və qeyd edirlər: "Kartla ödəniş yalnız kartdan karta köçürməklə mümkündür".

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti (DVX) də məlumat yayıb ki, pərakəndə ticarət və iaşə obyektlərində ödənişlərin kartdan karta köçürmə əməliyyatları vasitəsilə həyata keçirilməsi istehlakçıların hüquqlarının pozulmasıdır. DVX vətəndaşları öz hüquqlarını qorumaq üçün bu metodlardan çəkinməyə çağırır.

Maraqlıdır, əgər bu üsul qanunsuzdursa, sahibkarlar necə açıq şəkildə bundan istifadə edirlər? Bu halların qarşısı necə alınmalıdır? Ən əsası, müştərinin hüquqları necə pozulur, müştəri bu əməliyyatı həyata keçirərkən hansı imtiyazlardan məhrum olur?

### "NASAZ" POS-TERMİNAL NƏ VAXT İŞLƏYİR?

Vergi mütəxəssisi Anar Bayramov "Kaspi" qəzetinə açıqlamasında deyir ki, ölkə siyasətinin əsas prioritet istiqamətlərindən biri iqtisadiyyatın şəffaflaşması, real dövriyyələrin öz əksini tapmasıdır. Bunun üçün də qanunvericilik bazası təkmilləşdirilir, sərt intizam, tənbeh növləri gətirilir və stimullaşdırıcı tədbirlər həyata keçirilir: "Bunlardan biri də nağdsız hesablaşmalara marağın artırılmasıdır. Məsələn, "ƏDV geri al" kimi kampaniyadan istifadə edilir, hətta bəzi banklar ƏDV-ni ikiqat qaytarmağı təklif edirlər ki, müştərilər özləri POS-terminalla ödəməyə maraqlı olsunlar. Burada məqsəd nağdsız hesablaşmaların çəkisinin artırılmasıdır. Müştəri tələb etdikdə, sahibkar dövriyyəsini gizlədə bilmir, vergilərini real şəkildə ödəyir. Lakin müştərilər kartla ödəniş etmək istəyəndə, sahibkarlar dövriyyələrini az göstərmək imkanı əldə edirlər. Əgər müştəri kartdan karta köçürməkdən imtina etsə və nağd pulunun olmadığını desə, bu zaman "nasaz" POS-terminal işləməyə başlayır".



Anar Bayramov

### MÜŞTƏRİ NƏZƏRDƏ TUTULAN İMTİYAZLARDAN YARARLANA BİLMİR

Mütəxəssis qeyd edir ki, bu hallar qanunsuzdur və aşkarlandıqda, şikayət olunduqda sahibkar məsuliyyətə cəlb edilir: "Müştəri kartdan karta köçürmələr edərkən onun üçün nəzərdə tutulan imtiyazlardan yararlana bilmir. Məsələn, bu zaman "ƏDV geri al" hüququndan məhrum olur. Bundan əlavə, kartdan karta əməliyyatları zamanı vətəndaş çətin vəziyyətdə qala bilər. Alıcı, yaxud istifadəçi kartdan karta köçürmə etdikdə, pul onun hesabından çıxır, lakin bir çox hallarda satıcının hesabına köçmür. Burada texniki səbəb də ola bilər. Rəqəmi səhv yazanda məbləğin başqasının hesabına oturması da mümkündür. Bu zaman ciddi problemlər yaranır. Alıcı pulu ödəyir, satıcı isə deyir ki, pul çatmayıb".

## DVX-NIN ÇAĞIRIŞLARI VƏ İMTİYAZLAR

Həmsöhbətimizin sözlərinə görə, Dövlət Vergi Xidmətinin çağırışları ilə yanaşı, müştərilərə POS-terminaldan ödənişlər zamanı verilən fürsətlər bu metoddan istifadənin azalmasında mühüm rol oynayır: "Ölkədə sahibkarlar, ictimai iaşə obyektləri, ticarət mərkəzləri, restoranlar kifayət qədər çoxdur, amma vergi orqanı əməkdaşlarının sayı azdır. Bütün ölkəyə nəzarət etmək imkanları məhduddur. Məhz bu səbəbdən cərimələrin və stimullaşdırıcı alətlərin tətbiqi ilə sahibkarları belə hallardan çəkindirməyə çalışırlar".

## BƏS QANUNVERİCİLİK NƏ DEYİR?




Azərbaycan Vəkillər Kollegiyasının üzvü, vəkil Murad Mirzəzadə deyir ki, bu akt qanunsuzdur və vergidən yayınmaq məqsədi daşıyır: "İki şəxs arasında kartdan karta əməliyyatların aparılmasında qanuni baxımından heç bir problem yoxdur. Hər kəs bu hüquqdan yararlana bilər. Lakin bir tərəf vergi ödəyicisidirsə və köçürmə sahibkarlıq fəaliyyətindən irəli gəlirsə, bu zaman kartdan karta əməliyyatından söhbət gedə bilməz".

### MİN, ÜÇ MİN, ALTI MİN MANATLIQ CƏRİMƏ...

Vəkilin sözlərinə görə, "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" qanunun 17-ci maddəsində qeyd edilib ki, ticarət, məişət və digər növ xidmətlərin göstərilməsi zamanı müştərilərlə hesablaşmaların aparılması, habelə vergilərin və dövlət orqanları tərəfindən göstərilən xidmətlərə (işlərə) görə dövlət rüsumlarının və haqlarının ödənilməsi üçün müvafiq POS-terminallar quraşdırılmalıdır: "Bu qaydalar Nazirlər Kabineti tərəfindən təsdiq edilir. Təbii ki, qanunvericiliyin tələbinə riayət etməyənlər məsuliyyətə cəlb olunurlar. Vergi orqanları tərəfindən bu cür neqativ hallara qarşı mütəmadi olaraq əməliyyatlar həyata keçirilir. Əgər qanunsuzluq aşkar olunarsa, obyektə ilk dəfə olduqda min manat, təqvim ili ərzində ikinci dəfə aşkarlandıqda üç min manat, iki və daha artıq qanun pozuntusu olduqda isə altı min manat cərimə tətbiq edilir. Bu, Vergilər Məcəlləsinin tələbidir".



Murad Mirzəzadə

# TAMAŞAÇILARIN SEVİMLİ "MƏZİ"Sİ







**29 iyun - Musiqili Komediya Teatrının aktyoru, Əməkdar artist, tamaşaçıların daha çox "Məzi" kimi tanıyıb sevdiyi Elçin Həmidovun doğum günüdür. Onunla bir teatrda, film və layihələrdə tərəf-müqabil olan sənət yoldaşları mərhum aktyoru xoş xatirələrlə anırlar.**

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

"Sonuncu tamaşamız Qoqolun "Evlənmə" əsəri əsasında hazırlanan eyniadlı tamaşa idi. Bir premyeranı Mədəniyyət Nazirliyi üçün oynadıq. İkinci premyerada məşqlərə gəlmədi. Zəng edirdik, cavab vermirdi. Sonra sənət dostları onu evində ölmüş vəziyyətdə tapdılar..."

29 iyun - Musiqili Komediya Teatrının aktyoru, Əməkdar artist, tamaşaçıların daha çox "Məzi" kimi tanıyıb sevdiyi Elçin Həmidovun doğum günüdür. Onunla bir teatrda və tamaşalarda, film və layihələrdə tərəf-müqabil olan sənət yoldaşları "Elçinin yeri boş qalıb...", - deyə təəssüflənirlər.

**ONU HEÇ KİM ƏVƏZ EDƏ BİLMƏZ**

"Planet Parni iz Baku" KVN Teatrının bədii rəhbəri və rejissoru, Əməkdar artist Tahir İmanov "Elçinlə çox gec tanış olduq, amma buna baxmayaraq, qısa zamanda böyük layihələrə imza atdıq", - deyə xatırlayır: "Parni iz Baku" KVN Teatrını yaratdıq. Birgə Avropanın bir çox ölkələrini gəzdik, oralarda verilişlər çəkdik. Birgə ilk kommersiya filmlərinə imza atdıq. Söhbət "Məhəllə" film seriyasından, "Məşədi İbad 94" filmindən gedir. Onda ağlımıza gəlməzdi ki, bunlar indi dəbdə olan kommersiya filmləri olacaq. Biz bir çox ilklərə imza atdıq. İndiki dövrlə müqayisə etsək onda həm maddi, həm texnika baxımından imkan daha az idi. Buna baxmayaraq, biz çalışdıq. Sözün əsl mənasında gecə-gündüz işləyirdik. Hətta gecələr çəkilişlərdən gələndən sonra da zəngləşib fikirlərimizi bölüşərdik. Elçin özünə görə çox tələbkar idi. Ətrafındakılardan da tələb edirdi ki, peşəkar olsunlar: hər kiçik nüansa, davranışlarına, zarafatlarına, danışıqlarına fikir versinlər. Bu cür peşəkarların bu gün olmaması bizim üçün problem yaradır. Onun yeri həmişə boş olacaq. O yeri heç vaxt heç kim tuta bilməz. Elçin doğrudan da qeyri-adi bir insan və aktyor idi".

**ONUN SONUNCU BİLETİ...**

"Bu şəhərdə"nin prodüseri Müşfiq Abbasov: "Elçin dünyasını dəyişəndə biz Heydər Əliyev Sarayında konsertdə idik. İki gündən sonrakı konsert üçün də onun tamaşaçı qismində bileti vardı. Hətta 15 il əvvəl bizim konsertlərin birində aparıcı olmuşdu. Ancaq həmin gün üçün onun zalda nəzərdə tutulan yeri boş qaldı. Teatr səhnəmizdə də onun yeri vardı, o da boş qaldı. Həmin gün konsert davam edirdi - Rafaellə Coşqun hələ səhnədə idi. Amma Elçinin ölüm xəbərini mənə dedilər. Səhnə arxa-sında olan əməkdaşların hamısına tapşırdım ki, xəbəri Rafaellə Coşquna deməsinlər, bu, istər-istəməz konsertə təsir edəcək. Çünki onlar yaxın dost idilər və hər ikisi Elçini çox istəyirdi. Konsertdən sonra qrim otağına qalxarkən "Elçin Həmidov dünyasını dəyişdi", - deyə onlara xəbər verdim. Hər ikisi başlarını tutub liftdə yerə oturdu... Elçin hələ sağlığında bizə söyləyirdi: "Deyirsiniz dostam, deyib-gülürük, amma mən öləndə iki gün meyitim bir küncdə qalacaq, sonra cəsədimi tapacaqlar..." Həqiqətən də belə oldu..." M.Abbasov deyir ki, Elçindən yalnız xoş xatirələr qalıb: "O, çox təmiz insan idi. Həyatı yetimçiliklə, kasıbçılıqla keçmişdi.



Gənc yaşlarında valideynlərini, qardaş-bacısını itirmişdi. Öz istedadı və zəhməti sayəsində institutu qurtardı, çalışdı, ev aldı. Bahalı parfümləri və qızıl bər-bəzəkləri - saat, üzük, qolbaq və s. xoşlayırdı. Hər şeyin ən bahalısını və zövqlüsünü alırdı. Özü də "qızıl" kimi insan idi. Harasa səfərə gedərkən "sənin üçün nə gətirim?" deyə soruşanda "bilmirsən, nə gətirmək lazımdı?" deyirdi. Mən onun hər doğum və anım günündə, bayramlarda qəbri üstünə gedirəm..."

**"AXIR Kİ, REJİSSOR MƏNİ GÖRDÜ..."**

"Xalq arasında belə bir söz var: tıxsız balıq. Elçin də belə insan idi...", - deyə Əməkdar artist Rafael İsgəndərov sənət dostunu yada salır: "Elçin teatrın pərdəarxası intriqalarına qarışmayan, bəxti-taleyi bir qədər gətirməyən insan idi. Özü həmişə bəxtindən şikayət edərdi, "qapılarda böyüdüm, ac qaldım, o qədər yemək yemirdim ki, vitaminsizlikdən kirpiyim, saçım tökülürdü" deyirdi. Dostları çox deyildi, amma dost məclislərində can-başla iştirak edərdi. Məclis insanı idi. Yaxınlarına can yandırardı. Ölümündən iki həftə qabaq oynadığı tamaşa səs-küy yaratmışdı. "Axır ki, rejissor məni başqa ampluada gördü", - deyə sevincini bölüşərdü. Bizi də tamaşaya dəvət etmişdi. Adətən, istəyərsən ki bir layihədə sevdiyin bir insanla tərəf-müqabil olasan. Bu da bizə nəsib olurdu - həm filmlərdə, həm tamaşalarda onunla görüşürdük. Onunla bir neçə tamaşada və filmdə əməkdaşlığımız oldu". R.İsgəndərov deyir ki, indi onu yad edəndə kədərlənmirlər: "Mən Elçinlə çox zarafat edirdim. Amma sağlığında bunun halallığını almışdım. Deyirdi ki, səni çox istədiyimə görə bağışlayıram. Qəribədir ki, biz dostlarla onu yad edəndə kədərlənmirik, əksinə, onun etdiyi zarafatları yada salıb gülürük".

**YOXLUĞU ÜÇÜN DARIXIRAM**

Elçin Həmidovla Musiqili Komediya Teatrında çiyin-çiyinə çalışan Əməkdar artist Çingiz Əhmədov xatırlayır: "Biz yenə həmin teatrda çalışırıq, amma onun yoxluğu üçün darıxıram. Mən 1984-cü ildə teatra gələndə Elçin artıq işləyirdi. Sovet dövründən bir yerdə işləmişik, yol yoldaşı olmuşuq, dostluq etmişik. 2008-ci ildə Gürcüstana səfərə yollandıq. Biz bir kupedə getdik, hoteldə də bir otaqda qaldıq. Orada konsertlərdə iştirak etdik. Gürcüstanda yaşayan azərbaycanlılar onu da, məni də tanıyırdılar. Onun qan təzyiqi yüksək olurdu, bəzən burnundan qan açılırdı. Orada da xəstələndi". Ç.Əhmədov xatırlayır ki, mərhum aktyorla sonuncu işi Qoqolun "Evlənmə" komediyası əsasında hazırlanan tamaşada olub: "Bir premyeranı nazirlik üçün oynadıq. 2-ci premyerada məşqlərə gəlmirdi. Zəng edirdik, cavab vermirdi. Sonra aktrisa Kübra Əliyeva ilə Tahir və Cabir İmanov qardaşları gedib onu evdə keçinmiş vəziyyətdə tapdılar. Həmişə deyirdi ki, görəsən, mən 50 yaşı keçəcəyəm? Bizim nəsil bu yaşı keçmir, bacım da, qardaşım da keçməyib..." Elə bil ürəyinə dammışdı. Elçin hamımızın yaralı yeridir..."



Kaspi İDMAN
ÜÇ ƏSRİN QƏZETİ
29 İYUN Ş...



## Türkiyə minimal tapşırığın öhdəsindən gəldi

**Nəhayət, F qrupunda gözlənildiyi kimi Portuqaliya lider olub. Çexiya və Türkiyə üzərində qələbələrdən sonra Gürcüstana sürpriz məğlubiyyət komandanın qarşısını kəsə bilməyib. "Ay ulduzlular" da qrup mərhələsini altı xalla başa vurublar. Gürcüstan üzərində 3:1, Çexiya qarşısında 2:1 hesablı qələbələrlə Montellanın komandası minimal tapşırığın öhdəsindən gəlməyi bacarıb. Cəmi bir xal toplayan Çexiya da AVRO-2024-ün fiaskoları sırasına düşüb.**

Türkiyə millisi qrup mərhələsini altı xalla başa vurub. Montellanın komandası Gürcüstan üzərində 3:1, Çexiya qarşısında 2:1 hesablı qələbələrlə minimal tapşırığın öhdəsindən gəlməyi bacarıb.

# "AVRO-2024"ün SÜRPRİZLƏRİ

Almaniyada keçirilən futbol üzrə Avropa çempionatı davam edir. Artıq qrup mərhələsinin oyunları başa çatıb və iyunun 29-da 1/8 finala start veriləcək. Turnirin ilk iki turu bol qollu alınsa da, üçüncü turda komandalar daha çox nəticəyə oynadılar ki, bu da qarşılaşmaların baxımlılığının müəyyən qədər azalmasına səbəb olub.

### FAVORİT ALMANİYA VƏ İTKİSİZ İRƏLİLƏYƏN İSPANLAR

A qrupunda ev sahibi Almaniya gözlənildiyi kimi bütün rəqiblərini üstələyib. "Bundestim" iki qələbədən sonra İsveçrə ilə qarşılaşmada son dəqiqə qolu ilə heç-heçə edərək lider olub. Yulian Nagelsmannın komandası üçüncü turda çətinliklə üzləşsə də, ümumən göstərdiyi oyunla favoritlər sırasında olduğunu sübut edib. Meydan sahibi səkkiz qolla qrup mərhələsində ən çox fərqlənən yığma olmağı bacarıb. Onlarla birgə İsveçrə də növbəti mərhələyə adlayıb. Şotlandiya isə bir xalla turnirdə ən zəif nəticə göstərən yığmalardan olub.

B qrupunda İspaniya maksimum xal toplayıb. Komanda İtaliya və Xorvatiya kimi güclü rəqiblərlə mübarizədə qapısında top belə görməyib. Son Avropa çempionu İtaliya isə xorvatlarla oyunda yalnız son dəqiqə qolu ilə ikinci yerə yüksələ bilib. "Ölüm qrupu"nda "sağ qalmaq" mübarizəsində Xorvatiya uğursuzluğa düçar olub. Albaniyaya qarşı matçda əldən verilən qələbə yekunda onlara baha başa gəlib. Albanlar da Şotlandiya kimi AVRO-2024-ü bir xalla başa vurublar.

### QOL VURMAĞA ÇƏTİNLİK ÇƏKƏN FAVORİTLƏR

Qitə çempionatında gözləntiləri qarşılamayanlar sırasında son Avropa çempionatının finalçısı İngiltərə və dünya ikincisi Fransanı xüsusi qeyd etmək lazımdır. Sözügedən komandaların göstərdiyi oyun və xüsusən qol vurmaqda çətinlik çəkməsi azarkeşlərini üzmələrinə səbəb olub. Hər iki kollektiv üç qarşılaşmada cəmi iki dəfə fərqlənə bilib və bir qol buraxıb. B qrupunda yer alan ingilislər Serbiya üzərində qələbə ilə başlasalar da, daha sonra Danimarka və Sloveniya ilə qarşılaşmalarda müvafiq olaraq, qollu və qolsuz heç-heçəyə razılaşıblar. Adıçəkilən bu iki ölkənin yığmaları isə üç heç-heçə ilə qrupdan çıxa biliblər. Yalnız İngiltərəyə uduzan Serbiya isə qrup sonuncusu kimi turnirlə vidalaşıb.

Fransa isə favorit hesab olunduğu D qrupunda beş xalla ikinci yeri tutub. Burada Avstriya sürpriz şəkildə birinci olub. Üçüncü pilləni Niderland tutub və növbəti mərhələyə vəsiqə qazanıb. Polşa isə qrupda qalıb.

## Ən böyük bəxtsiz

**AVRO-2024-ün ən qəribə vəziyyəti E qrupunda yaranıb. Üç turdan sonra komandaların hər birinin dörd xalı olub. Yalnız top fərqinə görə Rumıniya lider, Belçika isə ikinci yeri tutub. Ukrayna dörd xalla qrup sonuncusu olub. Bir çox komandaların hətta daha az - üç xalla mərhələ adladığını nəzərə alsaq, Ukraynanı turnirin ən bəxtsiz komandası adlandırmaq da olar.**






Sergey Rebrov

## TARİX YAZAN GÜRCÜLƏR

Azərbaycanın digər qonşusu Gürcüstan ilk dəfə qatıldığı Avropa çempionatında qrup səddini aşmaqla növbəti dəfə tarix yazmağı bacarıb. Buna 24 komandalı turnirin formatı da kömək edib. Belə ki, altı qrupda ən yaxşı üçüncü yeri tutan dörd komanda da 1/8 finala yüksəlir. Dörd xal yığan gürcülər üçüncülərin mübarizəsində ən yaxşı ikinci göstəriciyə nail olublar.

## 1/8 FİNAL CÜTLƏRİ

1/8 final mərhələsi bu gün İsveçrə - İtaliya və Almaniya - Danimarka matçları ilə start götürəcək. İsveçrəlilər qrupdakı oyunları ilə rəğbət qazansalar da, böyük turnirlərdə İtaliyanın məhz qrupdan sonra daha yaxşı çıxış etməsi qarşılaşmanın gərgin olacağı ehtimallarını artırır. Almanlar isə Danimarka ilə görüşdə favoritdirlər. Lakin Danimarka da müdafiədə etibarlıdır və almanların işi heç də asan olmayacaq. İyunun 30-da daha iki 1/8 final matçı keçiriləcək. İspaniya Gürcüstanı sınağa çəkəcək. Qrup mərhələsini birnəfəsə keçən ispanlar duelin aşkar favoritidirlər. İngiltərə millisi bu mərhələdə Slovakiya ilə üz-üzə gələcək. Slovaklar möhkəm komanda olduqlarını göstəriblər və ingilislərə başağrısı olmağa çalışacaqlar. Fransa və Portuqaliya 1 iyulda meydana çıxacaqlar. Fransızları Belçikaya qarşı ağır matç gözləyir. Belçikalılar qrup mərhələsində çətinliklə üzləşsələr də, heyət baxımından kifayət qədər yaxşı seçimlərə malikdirlər. Portuqaliyanın işi nisbətən daha asandır. Kriştiano Ronaldo və komanda yoldaşları Sloveniyanı sınağa çəkəcəklər. O Sloveniya ki, qrup mərhələsini üç heç-heçə ilə başa vurub. Nəhayət, iyulun 2-də 1/4 finalın son iki iştirakçısı müəyyənləşəcək. Türkiyə millisi sürpriz şəkildə qrup mərhələsini lider tamamlayan Avstriya qarşısında şans axtaracaq. Niderland isə Rumıniyanı üstələmək niyyətindədir. "Narıncılar" bu dueldə 1/4 finala yüksəlməyə daha yaxın tərəf kimi görünürlər.